**Təhsil millətin gələcəyidir!**

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

22 dekabr 2023-cü il | №49 (9057) | www.muallim.edu.az | muallim@edu.gov.az

**100 tələbə "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb**

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XVI QURULTAYI

# Ötən 5 ilin hesabatı, növbəti 5 ilin hədəfi

## Müəllimlərin XVI qurultayı fəal müzakirələr şəraitində keçirildi

Bakı, Konqres Mərkəzi,15 dekabr 2023-cü il…

Şəhərimizin ən möhtəşəm binalarından biri ölkə səviyyəsində, sadəcə 5 ildən bir baş verən və sayca XVI olan Azərbaycan müəllimlərinin qurultayına ev sahibliyi edir. Zarafat deyil, ölkənin dörd bir yanından gələn yüzlərlə müəllim, konkret desək, ümumi, orta ixtisas, peşə, ali təhsil və elmi müəssisələrdən 1600-dən çox nümayəndə qarşılanıb-yola salınacaq. Elm və Təhsil Nazirliyinin planlı təşkilatçılığı ilk andan diqqət çəkir. Qonaq çox olsa da, qarşılama qüsursuz, xidmət yüksək səviyyədədir. Binadakı monitorlar XVI qurultaydan xəbərlər verir, ayrıca "XVI qurultay" adlı hər kəsə açıq internet şəbəkəsi var, hər cür texniki imkanları ilə "Media mərkəzi" jurnalistlərin ixtiyarındadır.

Bu qurultayın ayrı bir özəlliyi də var. XVI qurultay Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Beləliklə, qurultay öz işinə başlayır, təbii ki, mənəvi borcunu yerinə yetirəndən sonra. Əvvəlcə, qurultay iştirakçısı olan müəllimlər Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının uşaq xoru ilə birlikdə Dövlət Himnini oxuyub, vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızın və ötən qurultaydan keçən müddət ərzində vəfat etmiş təhsil işçilərinin xatirəsini yad edib.

Ardı səh. 2



## İlk təqaüdçülər

### "Təqaüd gələcək planlarımı böyütməkdə stimul oldu"



İlk 100 gəncin siyahısında yer alanlardan biridir Röya Qasımova. O, Bakı Ali Neft Məktəbində "Biznesin idarə edilməsi" ixtisası üzrə təhsil alır. Ali məktəbə 2020-ci ildə qəbul olunub. Həmin ilin qəbul nəticələrinə görə öz ixtisası üzrə ölkə ikincisi və Prezident təqaüdçüsüdür: "Tələbə adı qazananda məcburi köçkün idim. Unuda bilməyəcəyim böyük nailiyyətlərimdən biri Qubadlının işğaldan azad olunması günündə ölkə Prezidentinin dəvətilə Qubadlıya səfər edən qonaqlardan biri olmağımdır. Hazırda ortalama balım 98-dir. Artıq Prezident təqaüdçüsü olmaqla yanaşı, həm də Heydər Əliyev adına təqaüdçüsüyəm. Özü də bu təqaüdə layiq görülən ilk 100 nəfərdən biriyəm.  Böyük qürurdur. Bu hadisə gələcək planlarımı böyütməkdə mənim üçün stimul oldu. Bundan sonra daha həvəslə oxuyacağam". Təqaüdü hara xərcləyəcəyi barədə planına gəlincə, 3000 manat təhsili üçün dəyərli sərmayə olacaq: "Təqaüdü karyerama xərcləyəcəyəm. İxtisasım üzrə özümü daha da təkmilləşdirmək, təhsilimi xaricdə davam etdirmək istəyirəm. Bütün bu planlarımda bu vəsaitin mənə böyük köməyi dəyəcəyini düşünürəm".

## Söz müəllimlərindir

### "Bu şanlı tarixin iştirakçısı olduğum üçün fəxr edirəm!"

Bərdə şəhəri 7 nömrəli tam orta məktəbin tarix müəllimi, Vətən müharibəsi iştirakçısı Ceyhun Əsədov qəhrəman olaraq qazandığı medalları təhsil sahəsində əldə etdiyi və edəcəyi nailiyyətlərlə bərabər təqdim etməyin qürurunu yaşayır: "Talış, Suqovuşan, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. "Suqovuşanın azad edilməsinə görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişəm. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə bu şanlı tarixin iştirakçısı olduğum üçün fəxr edirəm. Bu qələbə dövlətimizin də qüdrətini bütün dünyaya nümayiş etdirdi. Mən tarix müəllimiyəm və düşünürəm ki, tarixin, xüsusən Azərbaycan tarixinin tədrisində yeni yanaşmalar tələb olunur. Bununla bağlı fikrimi və təkliflərimi panel müzakirələrdə bildirdim. Düşünürəm ki, tarix fənninin tədrisində də müasir dövrün çağırışlarını nəzərə almalı, məsuliyyətli şagirdlər yetişdirməliyik".



**İlkin bacarıqlardan davamlı inkişafa** — Səh.6

**Koreyada innovasiya ekosistemi** — Səh.8

**"Bu qayğı gənclərimizi daha da həvəsləndirəcək"** — Səh.9

**Dərslərarası fasilə** — Səh.12

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XVI QURULTAYI

## Azərbaycan müəllimlərinin XVI qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Əziz müəllimlər və təhsil işçiləri!

Azərbaycan müəllimlərinin XVI qurultayının öz işinə başlaması münasibətilə sizi ürəkdən salamlayır, ölkəmizin təhsil işçilərinə ən xoş arzularımı yetirir, hamınıza cansağlığı və şərəfli fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

Bu qurultay "Heydər Əliyev İli" çərçivəsində keçirilməsi və Ümummilli Liderin 100 illik yubileyinə həsr olunması ilə əlamətdardır. Ulu Öndər genişmiqyaslı fəaliyyətində təhsilin dinamik inkişafına həmişə həssaslıqla yanaşmış və misilsiz qayğı göstərmişdir. Təhsil ocaqlarımız yüksəliş mərhələlərini məhz Heydər Əliyevin rəhbərliyi dövründə yaşamışdır. Milli təhsildə zamanın çağırışlarına müvafiq, gələcək perspektivlər yönündə atılan uğurlu addımlar həmin dövrdə ardıcıl surətdə gerçəkləşdirilmiş dövlət siyasətinin nəticəsidir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrasına başlanılmasından bəri keçən müddətdə təhsilin bütün pillə və səviyyələrində innovativ təşəbbüslərin tətbiqi genişləndirilmişdir. Təhsil sistemində idarəetmənin qabaqcıl dünya təcrübəsinə uyğun təkmilləşdirilməsinə, universitetlərimizin beynəlxalq reytinq cədvəllərində irəliləməsinə, təhsilin elmlə inteqrasiyasının dərinləşdirilməsinə daim xüsusi diqqət yetirilir. Kadr ehtiyatının səriştəlilik baxımından gücləndirilməsi, müəllim peşəsinin ictimai nüfuzunun möhkəmləndirilməsi və müəllim fəaliyyətinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Azərbaycan təhsil sisteminin mütərəqqi beynəlxalq meyarlara əsaslanması rəqabətqabiliyyətli insan kapitalının hazırlanması prosesinə töhfəsini verməkdədir. İstedadlı gənclərimizin xarici ölkələrin tanınmış ali təhsil müəssisələrində təhsil almalarına dövlətimiz hər bir lazımi dəstəyi təmin edir.

Vətən müharibəsindəki parlaq qələbəmizdən dərhal sonra azad olunmuş ərazilərimizdə ən müasir standartlarla tikilən məktəblər artıq fəaliyyətdədir. Bu məktəblərdə gələcəyimizin layiqli vətəndaşları oxuyurlar. Yeni yaradılan Qarabağ Universiteti isə, şübhəsiz, regionda tarixən mövcud olmuş təhsil mühitini çox yaxın vaxtda canlandıracaqdır.

Ötən dövrün dolğun təhlilini apararaq təhsil sahəsində strateji məqsədlərə nail olmaq və Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulmuş hədəflərə çatmaq əzmi ilə ali məclisinizin ətraflı müzakirələr şəraitində mühüm qərarlar qəbul edəcəyinə və ölkənin intellektual potensialını təhsildə dayanıqlı inkişaf naminə sıx birləşdirəcəyinə əminəm.

İnanıram ki, xalqımıza Zəfər sevinci yaşadan igid və qəhrəman övladlarımızın formalaşması naminə müstəsna əmək sərf etmiş fədakar müəllimlərimiz gənc nəslə bundan sonra da mükəmməl bilik verməklə yanaşı, onların milli-mənəvi dəyərlərə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda böyüməsi üçün var qüvvə ilə çalışacaqlar.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri,15 dekabr 2023-cü il.*

# Ötən 5 ilin hesabatı, növbəti 5 ilin hədəfi






Əvvəli səh. 1

### İlk söz dövlət başçısınındır!

Qurultayda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva ölkə Prezidenti İlham Əliyevin iştirakçılara ünvanlanan müraciətini oxuyub.

### "Böyük qayıdış" ölkəmizdə növbəti bir neçə onilliyin planını müəyyənləşdirən proqramdır"

Ötən 5 ilin hesabatı, növbəti 5 ilin planları barədə elm və təhsil naziri Emin Əmrullayev danışıb. XV qurultaydan sonra görülən işlərin nəticələri, növbəti mərhələdə atılacaq addımların məqsədləri, aparılacaq islahatların istiqamətləri və maraq doğuran layihələr barədə məlumat verib.

Son 5 ilin ən böyük hadisəsi, Azərbaycan təhsilinə və elminə böyük imkanlar yaradan hadisə Qarabağda qazanılan hərbi qələbə və ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Bu böyük uğurdan sonra həyata keçirilən "Böyük Qayıdış" proqramında təhsillə bağlı bir sıra böyük istiqamətlər müəyyənləşdirilib və həmin istiqamətlər üzrə fəaliyyət yerinə yetirilib. Nazir Şuşa, Füzuli, Zəngilan, Laçın və Tərtər rayonları olmaqla Qarabağ və Şərqi Zəngəzurda 7 təhsil müəssisəsinin 84 müəllimlə şagirdlərin ixtiyarına verildiyi xəbərini qürurla paylaşıb.

"Böyük qayıdış" həm də ölkəmizdə növbəti bir neçə onilliyin planını müəyyənləşdirən proqramdır", - deyən nazir Şuşa, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcərdə növbəti mərhələdə tikilib istifadəyə veriləcək məktəb planlarını da açıqlayıb.

### Təhsildə pandemiya dövrü

Emin Əmrullayevin fikrincə, pandemiya dövrünün təhsilə təsiri uzunmüddət davam edəcək. O, fikrini əsaslandıraraq deyib ki, həmin müddətdə təhsil 200 gündən artıq distant formada keçirilib və 158 mindən çox şagird məktəbə bu formatda başlayıb: "200 gün bu uşaqların həyatına təsir etdi. Pandemiyanın təsirləri daha uzunmüddətlidir və tədqiqatlar məhz bu istiqamətdə aparılmalıdır. Azərbaycanda təhsil pandemiyadan əvvəl yüksələn xətlə inkişaf edirdi. COVID-19 dövründə eniş müşahidə edirik.Daimi ölçmələrlə bunu nəzərdə saxlamalı və növbəti 5 ildə pandemiyadan əvvəlki təhsil keyfiyyətinə qayıtmalıyıq".

Elm və təhsilin vəhdətinə - birlikdə irəliləməsi və xüsusi inteqrasiyasına yönəlmiş daha bir böyük islahat ötən qurultayı Təhsil Nazirliyi olaraq keçirən Elm və Təhsil Nazirliyində struktur dəyişikliyidir. Bunu "mahiyyət dəyişikliyi" kimi dəyərləndirən nazir yaradılan 3 agentlikdən gözlənilənlərə diqqət çəkib.

### Təhsildə erkən yaş dövrü Məktəbəqədər təhsil prioritetdir

Hazırda 1668 məktəbəqədər təhsil müəssisəsində 112 min uşaq təhsil alır. 2021-ci ildə "Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" ölkə Prezidentinin Sərəncamından sonra dövlət məktəbəqədər təhsil müəssisələri Elm və Təhsil Nazirliyinin tabeliyinə keçib. Uzun müddət müxtəlif bölgələrdə ayrı-ayrı təcrübə tətbiq olunsa da, hazırda həmin müəssisələrin hamısında vahid qaydanın tətbiqinə nail olunub.

Bu günün reallığı ondan ibarətdir ki, 16 mindən çox uşaq alternativ modellər, 91 min uşaq məktəbəqədər hazırlıq qrupları, 116 min məktəbəqədər təhsil müəssisələrində olmaqla, hazırda 5 yaşına qədər uşaqların 35.3 faizi məktəbəqədər təhsilə cəlb edilib. Hədəf bu göstəricini 2026-cı ilə qədər 50 faizə çatdırmaqdır. Sözügedən artıma isə alternativ modellərlə nail olunacaq.

Nazir hesab edir ki, 1-5 yaşı əhatə edən məktəbəqədər təhsilə bacardıqca çox diqqət yetirilməlidir. Əvvəla ona görə ki, digər təhsil səviyyələrində gördüklərimiz məhz bu mərhələdə etdiklərimizdir. Məsələn, tədqiqatlar göstərib ki, bir ildən çox məktəbəqədər təhsilə cəlb olunanlar orta hesabla 10 faiz daha yaxşı nəticə göstərir.

Ümumi təhsilə başlamadan uşaqların müəyyən hazırlıq keçməsi, heç olmasa, 1 il məktəbəqədər təhsilə cəlb edilməsinin önəmi 2014-cü ildən başlayaraq nəzərə alınır. Məktəbəhazırlıq qruplarının təşkili ilə başlayan prosesin 2023-cü ildə əldə olunan nəticəsi ondan ibarətdir ki, 5 yaşlı uşaqların 87 faizi əhatə olunub: "İstəyimiz odur ki, hər 5 uşaqdan biri, heç olmasa 1 il məktəbəqədər təhsilə cəlb olunsun. Bu, vacib indikatordur. Çünki həmin bir ilin təsiri olduqca böyükdür".

Məktəbəqədər təhsilə diqqəti zərurətə çevirən ikinci amil qoyulan investisiya üzrə səmərəli geridönüş əldə edilməsidir. Belə ki, burada geridönüş digər təhsil pillələrindən 7-10 qat daha çoxdur: "Bu da iqtisadiyyatda təxminən 20-30 ildən sonra özünü göstərəcək".



### Ümumi təhsilə yanaşma dəyişməlidir

Ümumi təhsildə səriştəəsaslı məzmunun tətbiqinin önəminə diqqət çəkən nazir deyib ki, illərdir bu barədə danışılsa da, ciddi təsir görünmür: "Siniflər və tədris fənləri üzrə dərs saatlarının müqayisəsinə baxdıqda görürük ki, təhsil 90 - 100 il ərzində dəyişməyib. Burada söhbət yanaşmaların, metodologiyanın, təhsil paradiqmasının dəyişməsindən gedir. 15-20 ildir səriştəyə əsaslanan təhsilə keçiddən danışırıq, amma məktəblərimizdə keçid baş verir, yoxsa yox, bu, olduqca vacib məqamdır".

Məzmunda dəyişiklik "Ehtiyat dərsliklər"lə reallaşdırılır. Yeni tətbiq olunan dərsliklər daha mütərəqqidir və müasir qiymətləndirmə metodologiyalarına əsaslanır, amma bu dəyişikliyin nəticəsi hələ dəqiq ölçülməyib.

"Rəqəmsal bacarıqlar" yeni istiqamət olaraq bir neçə ildir məktəblərdə həyata keçirilir və artıq 53 şəhər və rayonda 532 məktəbdə 410 min şagirdi əhatə edir. Bu layihənin məktəblərdə tədris olunan və artıq qəbul imtahanlarına da salınan informatika fənni ilə fərqinə toxunan nazir deyib ki, rəqəmsallaşma və texnoloji transformasiya yeni məzmuna və daha çox layihə əsaslı öyrənməyə istiqamətləndirir: "Müəllimlərimiz 30 il əvvəl öyrəndiklərini mütləq həqiqət kimi uşaqlarımıza gələcək üçün də öyrətməyə davam etsələr, müəyyən mənada böyük risklər götürmüş olacaq. Ona görə də sinfə növbəti 30 ili əsas götürüb girməlisiniz".

### Əmək bazarı hələ onları görməyib!

400 məktəbdə, 25 mərkəzdə 4 mindən çox sinfi və 180 min şagirdi əhatə edən STEAM layihəsi də uğurla davam edir. 2026-cı ildə 280 min şagirdin STEAM əsaslı tədrisə cəlbi nəzərdə tutulub.

Fənlərin bir yerdə qarşılıqlı inteqrasiya olunmuş şəkildə tədrisinə diqqət edilməsə, bunun şagirdə təsiri neqativ və böyük olacaq: "STEAM-ın mahiyyəti də fərqlidir. Çünki bir çoxu üçün oyuncaq kimi görünən dronu uçurmaq böyük diqqət tələb edir. Bunun üçün şagirdin kifayət qədər riyaziyyat və kimyadan biliyi, mühəndislik, dizaynetmə, proqramyazma bacarıqları olmalı, dronu uçura bilmək üçün fizikanı bilməlidir".

Ardı səh. 3

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XVI QURULTAYI

# Ötən 5 ilin hesabatı, növbəti 5 ilin hədəfi









Əvvəli səh. 2

Ötən qurultaydan bəri artıq III STEAM festivalının keçirildiyini, şagirdlərin necə böyük motivasiya ilə bu layihəyə qoşulduğunu diqqətə çatdıran Emin Əmrullayev STEAM-ın ilk dəfə tətbiq olunduğu siniflərin hələ məktəbi bitirmədiyini də vurğulayıb: "Əmək bazarı hələ bu uşaqları görmür. Əgər 410 min uşaq hazırda proqramlaşdırma öyrənirsə, bunun iqtisadiyyata və cəmiyyətə xeyri mütləq olacaq. Sadəcə olaraq zamana və səbr etməyə ehtiyacımız var".

### Sertifikatlaşdırma keyfiyyətə xidmət edir

Müəllimlərin sertifikatlaşdırılması və bu prosesin nəticəsi olaraq əməkhaqlarının artırılması son illərin ən böyük hadisələrindəndir: "Bu günə qədər 40 minədək müəllim sertifikasiyadan keçib. Onların 32 mini uğur qazanıb və əməkhaqlarına əlavələr edilib. Misal üçün bu gün 33 saat dərsi olan 950 müəllim (0.7faiz) 2000 və daha artıq əməkhaqqı alır".

Sertifikatlaşdırma, ilk növbədə keyfiyyətə xidmət edən addım olsa da, diferensiallaşmış əmək haqqına keçid sayəsində bacarıqlı müəllimlərin qiymətləndirilməsini də təmin edib. Amma başqa bir vacib məqamı da ortaya çıxarıb: "Müəllimin əməkhaqqını təyin edən onun dərs saatlarıdır. 28 min müəllimin cəmi 7 saat dərsi var. Bu, iki vacib məqamı göstərir. Birinci, sistemdə ehtiyacdan çox müəllim var. İkincisi, müəllimlər məktəbə bir neçə saat dərs dediyi yer kimi baxır. Məncə, müəllim məktəbə bu cür yanaşmamalıdır. Məktəb müəllimin hərdən-bir getdiyi yer olanda təhsil sisteminin inkişafı çətin olur. Ona görə də növbəti illərdə müəllimlərin bir qisminin tam ştat olaraq məktəbdə çalışmasına nail olacağıq".

Müəllimlərin karyera inkişafında mərhələliliyin təmin edilməsi üçün də nazirliyin bəzi planları var. Məktəblərdə metodist müəllimlərin fəaliyyəti, o cümlədən bacarıqlı, səriştəli müəllimlərin əməkdaşlığına nail olmaq prioritetlər sırasındadır.

Səriştəli, bacarıqlı müəllimlərin direktorların işə qəbulu müsabiqəsinə qatılması da maraq doğuran məsələlərdəndir. Elm və təhsil naziri direktorların əməkhaqqına əlavələrin tətbiqindən sonra bu vəzifəni tutmaq istəyənlərin sayının çoxaldığını bildirib. O qeyd edib ki, hazırda 896 direktor 2050 manat orta aylıq əməkhaqqı alır: "Əvvəl savadlı müəllim direktor olmağa maraq göstərmirdi, amma əməkhaqqı artımından sonra yüksək nəticə göstərən müəllimlərimizin marağının artdığını müşahidə edirik".

### Xərclər çox olan yerdə keyfiyyət yuxarı deyil

Nazir Emin Əmrullayev məktəblərə xərclənən vəsaitə də diqqət çəkib. Dövlət vəsaitinin daha düzgün, nəticəyönümlü xərclənməsi istiqamətində rasionallaşma tədbirlərinə ehtiyac gördüklərini dilə gətirib. Belə ki, şagirdlərə düşən adambaşına maliyyələşmə qeyri-bərabər paylanıb. Məsələn, şagird sayı 30-a qədər olan 477 təhsil müəssisəsində 1 uşağa 7 min manat xərclənir ki, bu rəqəmlər bəzi özəl məktəblərin qiymətlərinə bərabərdir: "Lakin həmin məktəblərdə keyfiyyət əldə edə bilmirik. Bu da o deməkdir ki, sinifdə sıxlığın az olması məktəbdə şagirdlərin daha yaxşı oxuması anlamına gəlmir. Bu nəticə həm də müəllimdən asılıdır. Eyni zamanda, rasionallaşmaya ehtiyac var, deməkdir. Elə məktəbimiz var, orada bir şagirdə 64 min manat xərcləyirik. Halbuki həmin bir şagird üçün 64 min manata daha çox iş görə bilərik. Bu nümunə ilə dövlət vəsaitinin daha səmərəli, daha nəticəyönümlü istifadəsini nəzərdə tuturuq. Bakının böyük məktəblərinin birində orta hesabla bir şagirdə 600 manat xərclənirsə, hansısa ucqar kənddə bu rəqəm 30 min manatdır. Bu, əlavə paylanma baxımından ədadətli deyil. 600 manat xərclənən məktəb daha yaxşı nəticə verir".

### Dalandan çıxan peşə təhsili

Peşə təhsilində əsas istiqamət daha çox insanın peşəyə yiyələnməsidir. Bu prinsiplə görülən tədbirlər sayəsində artıq 21 min peşə təhsili alan şəxs var. Artıma yeni proqramların və yüksək texniki peşə təhsilinin tətbiqi sayəsində nail olunub və 2026-cı ildə peşə təhsili alanların 27 min olacağı gözlənilir.

Nazirin fikrincə, məhz yüksək texniki peşə təhsilinin verdiyi imkanlar sayəsində peşə təhsili insanların karyerasında dalan rolu oynamır və cəlbediciliyi artıb.

Peşə təhsilinin cəlbediciliyi həm də müasirləşən infrastruktur və yüksək tələbat olan ixtisaslar sayəsində artır. Hətta texniki və sənaye istiqamətli bəzi ixtisaslara qəbulda rəqabət də yaranır.

### Ali təhsil müəssisələrinin rəqabətliliyi və reytinqlərdəki yerinin yüksəlməsi hədəfimizdir

Ali təhsilin əlçatanlığı istiqamətində mühüm işlər görülür və son illər qəbulda 40 faiz artımı göstərən rəqəmlər məhz bu fəaliyyətin nəticəsidir.

Xaricdə təhsil üzrə Dövlət Proqramı bərpa edilib və 2022-2023-cü təhsil ilində 336, bu tədris ilində isə 717 nəfər tam təqaüdlə dünyanın nüfuzlu universitetlərinə oxumağa göndərilib: "Ötən il rekord göstəricilər olub. 49 nəfər məzunumuz dünyanın ən nüfuzlu 10 universitetinə qəbul olunub. Eyni ildə Harvard universitetinə 9 nəfərin qəbul olunması tariximizdə bir ilk idi. İnanıram ki, həmin uşaqlar təhsilini başa çatdırıb geri qayıtdıqdan sonra ölkəmizin inkişafına öz töhfələrini verəcəklər".

Azərbaycan dövləti hazırda xaricdə təhsilini davam etdirən 252 doktorantın da dövlət proqramının şərtlərinə uyğun olaraq qayıdıb təhsilə öz töhfələrini verəcəklərini gözləyir.

Ali təhsildə əlçatanlığa yönələn addımlardan biri təhsil tələbə kreditləridir. 2022-2023-cü tədris ili üzrə 20 min, 2023-2024-cü tədris ili üzrə isə 26 min nəfər təhsil tələbə kreditindən faydalanıb.

Hədəfdə ali təhsil müəssisələrinin rəqabətliliyi və reytinqlərdəki yerinin yüksəlməsidir: "2026-cı ildə 3 ali təhsil müəssisəsinin Top-800-lüyə düşməsini hədəfləyirik. İnanırıq ki, bu, mümkündür. Çünki ali təhsil müəssisələrimizin Top-1000-liyə düşməməsinin bir neçə obyektiv səbəbi var və onlardan biri universitetləri profillərinə görə bölməyimizdir".

### Davamlı iqtisadi inkişafın təhsildən tələbi

Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Bəxtiyar Əliyev təhsil sahəsinə ayrılan xərclərin ildən-ilə artdığını, qanunvericilik bazasının möhkəmləndirildiyini, müəllim ixtisasına qəbulda keçid balının artdığını, sertifikasiyanın tətbiqi ilə müəllimlərin sosial müdafiəsinin gücləndirildiyini, təhsildə keyfiyyət təminatının şəffaf mexanizmlərinin hazırlandığını qeyd edib. Komitə sədri də peşə təhsilinin əhatəsinin artırılmasının önəminə diqqət çəkib: "Bu gün ali təhsilalanların sayı peşə və orta ixtisas təhsili alanların sayından 3 dəfə çoxdur. Əmək bazarının tələblərinə uyğun yeni peşə standartlarının və təhsil proqramlarının işəgötürənlərlə birlikdə hazırlanması, peşə təhsilinə qəbulun genişləndirilməsi davamlı iqtisadi inkişafın zəruri tələbidir".

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli diqqəti orta məktəblərdə keçilən humanitar fənlərdə tarixin, cəmiyyətin dövrləşmə prosesinə çəkib: "Bu istiqamətdə islahatların aparılmasına ehtiyac var və Akademiya olaraq buna başlamağı özümüzə borc bilmişik. Artıq Azərbaycan ədəbiyyatının dövrlər üzrə konsepsiyası və inkişaf mərhələləri orta məktəbdə və akademik tədqiqatlarda əksini tapıb. Yeni inkişaf mərhələləri hazırlanarkən azərbaycançılıq prosesi, dünya sivilizasiyaların inkişaf tarixi, dövlətçilik tarixi və real ədəbi prosesləri nəzərə alınıb. Hazırda Azərbaycan tarixinin inkişaf konsepsiyası və mərhələləri üzərində iş gedir. İncəsənətin inkişaf mərhələləri müzakirə prosesindədir. Bunlar bir-birinə çox yaxındır və dərsliklərdə də öz əksini tapmalıdır".

### Təxminən 5-10 ildən sonra məktəblərdə tədris etdiyi fənni güclü bilən müəllimlər işləyəcək

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə keçirilən imtahanların nəticələrinin təhlilinə əsaslanaraq fənlər üzrə müəllimlik ixtisaslarına qəbul olan abituriyentlərin ballarını müqayisə edib. Onun sözlərinə görə, məhz riyaziyyat, xarici dil, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasları üzrə olan nəticələr daha yüksəkdir. Bunu həmin fənlərin buraxılış imtahanında olması ilə əlaqələndirən M.Abbaszadə pedaqoji ixtisaslara qəbul planının artdığını deyib. Builki qəbulun 20 faizini məhz pedaqoji ixtisaslar təşkil edib. Maraqlıdır ki, hələ də müəllim peşəsi qadın işi kimi qəbul edilir. Oğlanlar, əsasən texnologiya sahəsi üzrə görülür. Bu il pedaqoji ixtisaslar üzrə abituriyentlərin orta bal göstəricisi 343, riyaziyyat müəllimliyinə 450 baldan yuxarıdır. Müəllimlik ixtisasını seçən abituriyentlər daha çox bölgələri təmsil edirlər, lakin bu il şəhər abituriyentlərinin də sayı artıb.

M.Abbaszadə bildirib ki, ölkədə pedaqoji kadrların keyfiyyət göstəriciləri daim ölçülür: "Növbəti 5-10 ildən sonra müəllim ordusunun tərkibini müəyyən etmək məqsədilə pedaqoji ixtisaslara qəbulla bağlı geniş araşdırma və təhlillər aparırıq. Araşdırmanın nəticələri tam şəkildə hər fənn üzrə ayrılıqda Elm və Təhsil Nazirliyinə təqdim olunacaq, eyni zamanda "Abituriyent" jurnalının 12-ci sayında dərc olunacaq".

Hər il olduğu kimi, bu il də ayrı-ayrı şəhər və rayonların, məktəblərin məzunlarının imtahan nəticələri müvafiq regional təhsil idarələrinə təqdim olunacaq: "Təhsil sahəsində islahatlar aparılarkən statistik təhlil mütləq nəzərə alınmalıdır. Yalnız bu yolla hansı istiqamətdə getdiyimizi, qoyduğumuz hədəflərə nə dərəcədə yaxın olduğumuzu müəyyən edə bilərik".

Elektron imtahanların standartlaşdırılması və bu imtahanların rəqəmsal əlçatanlığının artırılması hədəfinə çatmaq üçün 2024-cü ildən etibarən Dövlət İmtahan Mərkəzinin yeni imtahan korpusunda elektron imtahanların keçirilməsi nəzərdə tutulur. Növbəti mərhələdə, ölkədə kompüter və internet olan məktəblərin lisenziyalaşmasının aparılmasından sonra iştirakçı sayı 2000-dək olan imtahanların həmin məktəblərdə onlayn şəkildə keçirilməsi nəzərdə tutulur: "Daha kütləvi imtahanların bu formata keçirilməsi bir qədər çox vaxt tələb edir ki, bu da bizdən asılı olmayan səbəblərlə bağlıdır. Bu layihənin Elm və Təhsil Nazirliyi ilə birgə həyata keçirilməsi planlaşdırılır".

"Daha bir vacib hədəfimiz - rəqəmsal iqtisadiyyatın tələblərinə uyğun olaraq təhsilalanların səriştələrinin yoxlanılmasıdır. Bu, təkcə informatika dərslərində rəqəmsal kompetensiyaların deyil, digər fənlərdən də bilik və bacarıqların yeni formatda qiymətləndirilməsini nəzərdə tutur", -deyə M.Abbaszadə əlavə edib.

### "Belə proqramlar ali təhsili xüsusilə bölgələrdəki gənclərimizə daha əlçatan edəcək"

Qurultayda çıxış edən rektor Hafiz Paşayev keyfiyyətli müəllimlərin axtarışı və yetişdirilməsi istiqamətində ADA Universitetində məqsədyönlü fəaliyyətə diqqət çəkib. Müəllimə olan ehtiyac, sadəcə xaricdə təhsil alan kadrlar hesabına ödənilməyib, universitet öz üzərinə keyfiyyətli müəllim yetişdirilməsi məqsədini də qoyub: "Firidun bəy Köçərli və Badisəba xanımın fəaliyyəti barədə cəmiyyətimiz nə qədər biliklidir? Öz təcrübəmdən deyim ki, tələbə olarkən maarif və pedaqogikanı bizə əcnəbi nümunələrlə tədris edirdilər. Amma Firidun bəy Köçərli və onun xanımı kimi tarixi şəxsiyyətlərimizin adları dərsliklərdə çəkilmirdi. ADA Universiteti bu milli irsi davam etdirərək ölkəmizdə yüksəkixtisaslı müəllimlər yetişdirmək üçün üç ildir ki, "Bir müəllimin manifesti" proqramını həyata keçirir. Biz burada illərlə topladığımız elmi-pedaqoji təcrübəni bölgələrdəki məktəblərə və müəllimlərə ötürməyə çalışırıq. Universitetimiz rayonlarda qabaqcıl müəllimləri seçib ixtisasartımı üçün ADA-ya gətirir. Həmin müəllimlər, həmçinin ADA Universitetinin Vaşinqton Mərkəzində beynəlxalq təhsil təcrübəsi ilə də tanış ola bilirlər.

Qazaxdakı təcrübəmizi artıq Şəki və Gəncədə tətbiq etməyə başlamışıq. Bu prosesə İtaliyanın Bolonya Universiteti və Milan Politexnik Universitetindəki tərəfdaşlarımızı da cəlb edəcəyik".

Dünya iqtisadiyatının və iş bazarının sürətlə dəyişməsi ali təhsildə yeni modellərin tətbiqini tələb edir, onun daha çevik və qısamüddətli olmasına imkan yaradır. Gənclər qısa zamanda həm bilik, həm də bacarıq qazanaraq iş bazarına tam yararlı olmaq istəyirlər. ADA Universiteti öz fəaliyyətində bu istəyi də nəzərə alıb. Burada üçillik ali təhsil modelinin tətbiqi üzərində iş gedir: "Belə proqramlar ali təhsili xüsusilə bölgələrdəki gənclərimizə daha əlçatan edəcək".

### Qurultayda müəllim sözü

Qurultayda müəllimlərə də söz verilib. Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova, Bərdə şəhəri 7 nömrəli tam orta məktəbin tarix müəllimi, Vətən müharibəsi iştirakçısı Ceyhun Əsədov təhsilə və müəllimlərə göstərilən dövlət qayğısından, ölkəmizdə müəllim nüfuzunun, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlardan danışıb, müəllimlərin sertifikatlaşdırılması və diferensial əməkhaqqı sisteminin tətbiqinin onlar arasında sağlam rəqabəti və motivasiyanı gücləndirdiyini, eləcə də Azərbaycan müəllimlərinin üzərinə düşən missiyanı hər zaman şərəflə yerinə yetirdiklərini vurğulayıblar.

Ardı səh. 4

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XVI QURULTAYI

# Ötən 5 ilin hesabatı, növbəti 5 ilin hədəfi




Əvvəli səh. 3

### Panel sessiyalarda

Plenar iclasdan sonra qurultay öz işini panel sessiyalarla davam etdirib.

Sessiyada çıxış edən Azərbaycan Respublikası Prezidenti Katibliyinin sabiq rəisi Dilarə Seyidzadə, Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova, Baş nazirin sabiq müavini Əli Həsənovulu öndərlə bağlı xatirələrini bölüşüb, Heydər Əliyevin xidmətlərindən danışıblar.

“Elm və ali təhsilin inteqrasiyası” panelində Sumqayıt Dövlət Universitetinin rektoru Rüfət Əzizovun moderatorluğu ilə elm və təhsil sahəsinin inteqrasiyası mövzusunda müzakirə keçirilib. Qeyd olunub ki, ixtisas sahələrinin sayı iş yerlərinin tələblərinə uyğun olmalıdır. Müzakirələrdə ali təhsil və elm arasında inteqrasiyanın doğru prinsiplər əsasında qurulmasının vacibliyi, universitetlərdə müəllimlərin dərslərə yanaşma formasının mühümlüyü, həmçinin müəllimlərin təkmilləşdirilməsi əsas məsələ kimi vurğulanıb.

Sessiyada elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentləri Dilqəm Tağıyev və İradə Hüseynova iştirak ediblər.

Digər paneldə “Azərbaycan dili yeni çağırışlar müstəvisində” mövzusu ətrafında müzakirələr aparılıb. Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Mehriban Vəliyevanın moderatorluğu ilə Azərbaycan dilində oxu, yazı, nitq problemləri, o cümlədən dilin tədrisində müşahidə edilən məsələlərə diqqət çəkilib.

Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullayev, ümumi təhsil müəssisələri üçün Azərbaycan dili dərsliklərinin həmmüəllifi Rafiq İsmayılov, yazıçı-publisist Aqşin Yenisey panel müzakirələrdə çıxış edərək ana dilinin təbliği, oxu vərdişlərinin aşılanmasında müəllimlərin rolunu vurğulayıblar.

Müzakirələrdə Azərbaycan dilinin tədrisi ilə bağlı təkliflər də verilib.

“İşğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” paneli isə İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının moderatorluğu ilə keçirilib. Panel müzakirələrdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov, Qarabağ Dirçəliş Fondunun Beynəlxalq əlaqələr və dövlət qurumları ilə iş şöbəsinin müdiri Aynurə Hacıyeva və Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova iştirak ediblər.

Müzakirələrdə işğaldan azad edilmiş ərazilərdə görülən quruculuq işlərindən bəhs edilib, həmçinin Ağdam, Füzuli rayonlarında aparılan və yekunlaşmaq üzrə olan layihələrdən danışılıb.

Qurultayın ilk günü “Rəqəmsallaşma, süni intellekt və təhsilin transformasiyası”, “Ümumi təhsilin idarə olunmasına müasir yanaşmalar”, “Peşə təhsili və gələcək üçün bacarıqlar”, “Müəllim hazırlığı və müəllimlərin peşəkar inkişafının prioritet məsələləri”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlbi: inklüziv, inteqrasiyalı və xüsusi təhsil”, “Məktəbəqədər təhsilin məzmunu və əhatə dairəsinin genişləndirilməsi” mövzuları üzrə də müzakirələr təşkil edilib.

Bakı Avropa liseyinin ibtidai sinif müəllimi Pərvinə Qədimovanın moderatorluğu ilə keçirilən “İbtidai təhsildə öyrənmə və öyrətmə müxtəlifliyi” panelində bu təhsil pilləsi üzrə sözügedən məsələlər barədə müzakirələr aparılıb. Bununla yanaşı, tədris prosesi zamanı qarşıya çıxan çətinliklər səsləndirilib, onların həlli istiqamətində iştirakçıların təklifləri dinlənilib və bu istiqamətdə göstərilə biləcək dəstəklə bağlı söhbət edilib.

“Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisinə yeni yanaşmalar” panelində bu fənlərin tədrisi ilə bağlı məsələlər müzakirə olunub. Fənn müəllimləri Təhsil İnstitutunun Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinin Əlaqələndirmə şöbəsinin müdiri Aynur Rüstəmovanın moderatorluğu ilə tədris prosesində qarşıya çıxan problemlərdən danışılıb, onların həlli istiqamətində fikir və təkliflər səsləndirilib.

Növbəti panel “Müasir dövrdə təbiət fənlərinin tədrisi” mövzusunda olub. “Təbiət” və “Həyat bilgisi” dərsliklərinin həmmüəllifi Yalçın İslamzadənin moderatorluğu ilə aparılan sessiyada fənnin tədrisi zamanı müəllimlərin qarşılaşdıqları problemlər, yeni dərsliklərin tərtibatı məsələləri vurğulanıb. Eyni zamanda təbiət fənlərinin tədrisi üzrə müəllimlərin rəy və təklifləri dinlənilib, bununla bağlı müzakirələr aparılıb.

Riyaziyyat fənninin məzmunu və tədris metodikasından bəhs olunan “Müasir dövrdə riyaziyyat fənninin tədrisi” panelinin moderatoru Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksinin riyaziyyat müəllimi Nigar Əliyeva olub. Panel müddətində şagirdlərdə riyazi düşüncənin əhəmiyyəti, onların riyaziyyat fənninin mənimsənilməsi zamanı qarşılaşdıqları çətinliklərdən danışılıb və məktəblilərə riyazi həllərə dair məsələlərin mahiyyətinin aydınlaşdırılmasının əsas məqam olduğu diqqətə çatdırılıb. Bununla yanaşı, müzakirələrdə riyaziyyat fənninin tədrisində diferensial təlimin təşkili, şagirdlərin riyazi-məntiqi təfəkkürünün inkişaf etdirilməsi və fənnin tədrisi ilə bağlı təkliflər dinlənilib.

“Tarix və coğrafiya fənlərinin tədrisinə yeni baxış” panelində “Tarix və coğrafiya fənlərinin müasir tədrisi necə olmalıdır?”, “Problemlər və onların həll yollarını necə görürsünüz?” sualları ətrafında müzakirələr aparılıb, iştirakçıların fikirləri dinlənilib.

Təhsil İnstitutunun Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinin baş mütəxəssisi Aygün İsgəndərovanın moderatorluğu ilə keçən “Xarici dillərin öyrənilməsi: yeni imkanlar” panelində ümumi təhsil müəssisələrində tədris olunan müxtəlif xarici dillər haqqında müzakirələr aparılıb və xarici dillərin tədrisində tətbiq olunan yeniliklər barədə məlumat verilib.

“İncəsənət, texnologiya və fiziki tərbiyə fənlərinin kamil şəxsiyyətin formalaşmasında rolu” panelində bu fənlərin tədrisində istifadə olunan metodlardan danışılıb. Sessiyada qeyd edilən fənlər üzrə standartlar, qarşıya çıxan problemlər dinlənilib, müəllimlərin rəy və təklifləri müzakirə olunub.

Digər panelin mövzuzu isə “İnnovativ layihələr: STEAM, “Rəqəmsal bacarıqlar” və s.” olub. “STEAM Azərbaycan” layihəsinin rəhbəri İqrar Nəzərovun moderatorluğu ilə keçirilən paneldə yeni STEAM mərkəzlərinin yaradılması, layihənin əhatə dairəsinin genişləndirilməsi, şagirdlərin bu təhsil yanaşmasına fəal surətdə cəlbi, eləcə də STEAM yanaşmasının tətbiqi üzrə statistik məlumatlar iştirakçılarla bölüşüb.

“Rəqəmsal bacarıqlar” layihəsinin rəhbəri Nilufər Rəhimova isə XXI əsr bacarıqlarının şagirdlərdə formalaşdırılması baxımından ölkəmizdə uğurla həyata keçirilən layihənin tətbiqi və əhatə dairəsinin genişləndirilməsi, informatika fənninin tədrisi, eləcə də “Alqoritmika” şirkəti ilə əməkdaşlıq çərçivəsində görülmüş işlər barədə məlumat verib.

Panel sessiya fəal sual-cavab formatında davam etdirilib, müəllimlərin təklifləri dinlənilib.




### Qurultay işini “Heydər Əliyev adına təqaüd”ün təqdimatı ilə yekunlaşdırdı

Dekabrın 16-da Azərbaycan müəllimlərinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş XVI qurultayı başa çatıb.

Bağlanış mərasimində Elm və Təhsil Nazirliyinin Strateji planlaşdırma və icraya nəzarət şöbəsinin müdiri vəzifəsini icra edən Leyla Xəlilova Rzazadə qurultayın qətnaməsini oxuyub.

Ardınca isə qətnamə qəbul edilib.

Sonda Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsis edilmiş ali təhsilin bakalavriat səviyyəsində əyani formada təhsil alan və təhsildə yüksək nailiyyətləri olan 100 tələbəyə “Heydər Əliyev adına təqaüd” təqdim olunub.

Qurultay konsert proqramı ilə başa çatıb.

**Ruhiyyə DAŞSALAHLI,**
**Oruc MUSTAFAYEV,**
**Lamiyə ƏLİMƏRDANOVA**

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XVI QURULTAYI

## "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təhsili"

### Ulu Öndərin zəngin siyasi irsi, milli təhsil konsepsiyasının inkişafı sahəsində misilsiz xidmətləri panel sessiyasının əsas mövzusu kimi




Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan Müəllimlərinin XVI Qurultayında elm və təhsil nazirinin müavini Firudin Qurbanovun moderatorluğu ilə keçən "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təhsili" panelində Ulu Öndərin zəngin siyasi irsi, milli təhsil konsepsiyasının inkişafı sahəsində misilsiz xidmətlərindən bəhs olunub. Sessiyada çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov vurğulayıb ki, Heydər Əliyev daim qeyd edirdi ki, hər bir ölkənin gələcək uğurlu inkişafı onun gənclərinin təhsilindən asılıdır. Məhz buna görə də Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə daim təhsilin inkişafına xüsusi diqqət yetirib. "1970-1982-ci illərdə ölkədə 1191 məktəb istifadəyə verilib, məktəbəqədər təhsil müəssisələrinin inkişaf etdirilməsi və yenilərinin yaradılması təmin olunub. O dövrdə 5 yeni ali məktəb yaradılıb, peşə məktəblərinin sayı xeyli artıb. Bunlar imkan yaratdı ki, həm təhsilalanlara, həm təhsilverənlərə lazımi şərait yaradılsın, çünki təhsilin inkişafında əsas məsələ müasir infrastrukturun yaradılmasıdır. Və bu infrastruktur imkan yaradır ki, təhsilverənlər lazımi şəraitdə, müasir tələblər səviyyəsində tədrisi həyata keçirə bilsinlər".

Nazir müavini F.Qurbanov əlavə edib ki, Ulu Öndərin uzaqgörən siyasətində gənclərimizin xaricdə təhsil almaları ilə bağlı istiqamət də əsas yer tutur. "1970-1980- ci illərdə hər il 300-400, sonralar isə 800 gənc o vaxt SSRİ məkanında nüfuzlu ali məktəblərdə 250-dən artıq ixtisas üzrə ali təhsil ala biliblər. Və bu gün onlar müasir Azərbaycanda dövlət idarəetmə sistemində, ali təhsil sahəsində çalışırlar. Məhz o vaxt nüfuzlu ali məktəblərdə təhsil alanlar bu gün ölkənin inkişafını təmin edirlər".

Nazir müavini xüsusi olaraq qeyd edib ki, bizim gənclər keçmiş ittifaqın bir çox ali hərbi məktəblərində ali təhsil alıblar. Bizim bugünkü qələbəmiz, Qarabağ torpaqlarımızın azad olunmasında məhz bu hərbi kadrların böyük xidmətləri vardır".

Firudin Qurbanov Elm və Təhsil Nazirliyinin Ulu Öndərin zəngin irsinin təhsilalanlara çatdırılması sahəsində apardığı işlərin bundan sonra da davamlı xarakter alacağını vurğulayıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dərsliklərimizdə, tədris proqram və vəsaitlərində daim öz əksini tapır. Eyni zamanda Heydər Əliyevin fəaliyyəti ilə bağlı şagirdlər, tələbələr arasında bir çox müsabiqələr, bilik yarışları keçirilir. "Heydər Əliyevin fəaliyyəti ilə bağlı bütün istiqamətlər - vətənpərvərlik, təhsil, hərbi quruculuq üzrə istedadlı şagirdlərimiz öz təqdimatlarını edirlər, Elm və Təhsil Nazirliyi onları xüsusi mükafatlarla qiymətləndirir. Bu iş bundan sonra da davam edəcək. Siz əmin ola bilərsiniz ki, biz Heydər Əliyevin zəngin ideya və siyasi irsini qoruyub saxlayacaq və gələcək nəsillərə çatdıracağıq", - deyə nazir müavini bildirib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova qeyd edib ki, Heydər Əliyev ölkəyə rəhbərliyinin ilk illərindən başlayaraq Azərbaycanın yeni inkişaf istiqamətlərini müəyyənləşdirib. Xüsusən də sənaye və texnologiya sahəsində mütəxəssis çatışmazlığını aradan qaldırmaq üçün ciddi səylər göstərib. O vaxta qədər Azərbaycan üçün tələb olunan mütəxəssislər və işçilər Rusiyadan gətirilirdi. Belə bir şəraitdə Heydər Əliyevin qərarı ilə azərbaycanlı gənclərin keçmiş ittifaqın müxtəlif şəhərlərinə oxumağa göndərilməsinə başlanmışdı: "O zaman xarici ölkələrdə mütəxəssis hazırlığı mümkün deyildi, ona görə də gənclərimiz ancaq ittifaq məkanında təhsil almağa göndərilirdi. Azərbaycanın xarici siyasət sahəsində çalışacaq ilk diplomatlarımız da Kiyev və Moskvada oxudular. Qonşu Gürcüstanda beynəlxalq hüquq, diplomatiya sahəsində mütəxəssislər var idi. Buna görə də müvafiq sahələrdə elmi şuralarda iştirak üçün qonşu ölkədən mütəxəssislər dəvət etməli idik. Ulu Öndər bütün bu məsələlərlə tanış olduqdan sonra onun xüsusi tapşırığı əsasında müvafiq sahələr üzrə kadr hazırlığını təmin etmək üçün gənclərin xaricə göndərilməsinə qərar verildi. Ulu Öndər göndəriləcək gənclərin siyahısına baxanda onların hamısının oğlanlar olduğunu gördü. Qızların siyahıda olmamasının səbəbi ilə maraqlandı. Səbəb kimi bəzi valideynlərin qızların ölkədən kənarda təhsilə göndərilməsinə etiraz etməsi və bunu milli motivlərlə bağlaması göstərilirdi. Məhz Heydər Əliyevin tapşırığı ilə siyahının yenidən hazırlanması və siyahıda qızların da yer alması təmin olunmuşdu".



Məhz Ulu Öndərin qərarı ilə başqa şəhərlərə göndərilmiş, təhsillərini tamamlayaraq məzun olmuş şəxslərin hər biri müəyyən sahələrdə çalışmaqla ölkəmizdə tanınmış mütəxəssislər olmuşdur.

Bundan əlavə, Ulu Öndər ali təhsil müəssisələrinin maddi, texniki problemləri ilə tanış olurdu, bu sahədə mövcud problemləri araşdırırdı. O, ali məktəblər qarşısında yüksəkixtisaslı mütəxəssis hazırlığına tələbat olan sahələrin müəyyənləşdirilməsi kimi bir vəzifə qoymuşdu.

Qeyd edilib ki, Heydər Əliyev qızların təhsillinə böyük diqqət yetirib, qadınların savadlı olması, onların bu sahədə uğurlar qazanması üçün bir çox tədbirlər həyata keçirib. Ümummilli Liderin təhsil siyasəti bu gün Azərbaycanda uğurla davam etdirilir.

Paneldə çıxış edən YAP-ın sədr müavini Əli Həsənov, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə, professor Şahlar Əsgərov Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən söz açıblar, onunla bağlı xatirələrini bölüşüblər.

**Oruc MUSTAFAYEV**

## Azərbaycan Müəllimlərinin XVI Qurultayının Qətnaməsi

**Böyük fəxr hissi ilə bildiririk ki, Azərbaycan müəllimlərinin XVI Qurultayı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuşdur. Eyni zamanda, müəllimlərin bu ali məclisi Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması dövründə keçirilən ilk Müəllimlər Qurultayı kimi tarixə düşmüşdür. Bu şanlı tarixi dövr qarşıya yeni imkanlar və vəzifələr qoyur, eləcə də Azərbaycanın sosial-iqtisadi qüdrətinin artması, təhsil sahəsində davamlı islahatların intensiv xarakter alması, rəqabətli insan kapitalının formalaşması, işğaldan azad edilmiş ərazilərimizdə təhsilin bərpası və inkişafı istiqamətində əhəmiyyətli addımların atılması ilə xarakterizə olunur.**

Qurultay iştirakçılarına ünvanlanmış təbrik məktubunda təhsil sahəsində həyata keçirilmiş fəaliyyətləri yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk. Bu, dövlət başçısının elm və təhsilə göstərdiyi böyük diqqət və qayğının parlaq təzahürü, təhsil sektorunun inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri kimi nəzərə alınmasının bariz nümunəsidir.

Qurultay hesab edir ki, hesabat məruzəsində elm və təhsil sahəsində nəzərdə tutulan strateji istiqamətlər üzrə həyata keçirilən islahatlar, qazanılan nailiyyətlər obyektiv mövqedən işıqlandırılmış və qarşıda duran əsas çağırışlar dəqiq müəyyənləşdirilmişdir.

Qurultay ötən müddətdə təhsilin inkişafı sahəsində mühüm addımların atıldığını, bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi və əhatəliliyinin artırılması, səmərəli idarəetmə və maliyyələşmə modellərinin tətbiqi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, təhsil infrastrukturunun müasirləşdirilməsi, işğaldan azad edilmiş ərazilərdə təlim-tədris prosesinin bərpası baxımından sistemli tədbirlərin həyata keçirilməsini xüsusi vurğulayır. Elm və təhsil sahəsində əhəmiyyətli nailiyyətlərin qazanıldığını, bu sahədə siyasətin vacib göstəriciləri olan əhatəlilik, keyfiyyət, əlçatanlıq, bərabər imkanlar və səmərəlilik sahəsində müsbət dinamikanın əldə olunduğunu qeyd edərək, hesabat məruzəsini qənaətbəxş hesab edir.

Qurultay Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təbrik məktubunda öz əksini tapmış konseptual müddəaları, hesabat məruzəsində, məruzə ətrafında çıxışlarda və plenar sessiyalarda irəli sürülən təklifləri nəzərə alaraq, aşağıdakı istiqamətləri əhatə edən qətnaməni qəbul edir:

- Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təhsil infrastrukturunun yaradılması və tədris prosesinin müasir standartlara uyğun təşkili işinin davam etdirilməsi;

- təhsil müəssisələrində tərbiyə işinin sistemli təşkili, Ümummilli Lider Heydər Əliyev irsinin daha dərindən öyrənilməsi, Azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət, milli-mənəvi dəyərlərə hörmət hissinin aşılanması, Vətənə sədaqət və vətəndaşlıq mövqeyinin formalaşdırılması;

- ümumi təhsilin məzmununda Vətən müharibəsində "Böyük Zəfər" və Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması ilə bağlı məlumatların əks etdirilməsi, ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı məzmunun zənginləşdirilməsi və bu ideyaların yetişməkdə olan gənc nəslə aşılanması sahəsində sistemli işin aparılması;

- gələcək süni intellekt və IV Sənaye İnqilabı dövrünün tələblərinə, dünyada təhsilin inkişaf tendensiyalarına uyğun olaraq, ümumi təhsildə fənlərin tədrisinə yeni yanaşmaların tətbiqi ilə bağlı zəruri tədbirlərin görülməsi, bununla əlaqədar dərsliklərin və dərs vəsaitlərinin məzmun baxımından təkmilləşdirilməsi;

- uşaqların erkən yaş dövründən inkişaf etdirilməsinin vacibliyini nəzərə alaraq, məktəbəqədər təhsilin məzmununun təkmilləşdirilməsi, əhatə dairəsinin genişləndirilməsi və müəllim heyətinin peşəkarlığının artırılması;

- ölkədə ümumi təhsildə səriştəəsaslı məzmunun, nəticəyönümlü idarəetmə və maliyyələşmənin tətbiqi, təmayüllərin əhatə dairəsinin genişləndirilməsi və infrastrukturun müasirləşdirilməsi nəticəsində təhsil üzrə beynəlxalq qiymətləndirmələrdə ölkənin nəticələrinin yüksəldilməsi;

- təhsilin bütün səviyyələrində təhsilalanlara rəqəmsal bacarıqların aşılanması təhsil müəssisələrində İKT əsaslı infrastrukturun inkişaf etdirilməsi, tədris prosesində və idarəetmədə İKT-nin tətbiqinin və STEAM əsaslı tədrisin əhatə dairəsinin genişləndirilməsi vasitəsilə təhsilin keyfiyyətinin artırılması;

- təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsi məqsədilə müəllimlərin peşəkar inkişafı sisteminin təkmilləşdirilməsi, müəllim fəaliyyətinin qiymətləndirilməsi və diferensial əməkhaqqı sisteminin tətbiqi üzrə fəaliyyətlərin davam etdirilməsi;

- əmək bazarının tələblərinə uyğun olaraq, peşə təhsilinin əhatə dairəsinin və keyfiyyətinin artırılması, peşə təhsili sistemində maliyyələşmə və idarəetmə sisteminin təkmilləşdirilməsi, təhsilverənlərin və idarəetmə heyətinin peşəkarlıq səviyyəsinin artırılması;

- ali təhsilin məzmununda əmək bazarının tələblərinin nəzərə alınması, rəqabətli maliyyələşmə və idarəetmə mexanizmlərinin yaradılması ilə ali təhsilin əlçatanlığının artırılması, müasir təfəkkürlü gənclərin elmi araşdırmalara cəlb edilməsi, elm və təhsilin inteqrasiyası sahəsində tədbirlərin davam etdirilməsi;

- bütün təhsil pillələri üzrə sağlamlıq imkanları məhdud şəxslərin inklüziv təhsilinin təşkili mexanizminin yaradılması və tətbiqi;

- istedadlı uşaq və gənclərin aşkara çıxarılması və inkişafı üzrə işin səmərəliliyinin artırılması, fənn olimpiadaları və bilik yarışları sahəsində qazanılan uğurların davamlılığının təmin edilməsi, istedadlı uşaq və gənclərin inkişafına nail olunması;

Qurultay böyük inam və nikbinliklə bəyan edir ki, elm və təhsil işçiləri əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş milli təhsil quruculuğu prosesini Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirəcək, müasir dövrün çağırışlarına, müəyyən olunmuş strateji hədəflərə və ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq, növbəti illərdə Azərbaycan təhsili keyfiyyət göstəricilərinə, əhatəliliyinə və rəqabətqabiliyyətliliyinə görə aparıcı təhsil sistemlərindən birinə çevriləcəkdir.

# ADMİU-nun 100 illik yubileyi münasibətilə "Maqbet" tamaşası oynanılıb





**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) 100 illik yubileyinə həsr olunmuş "Maqbet" tamaşasının premyerası keçirilib.**

Premyerada elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, mədəniyyət nazirinin müavini Səadət Yusifova, millət vəkilləri, tanınmış ictimaiyyət nümayəndələri, ali təhsil müəssisələrinin rəhbərləri, professor-müəllim kollektivi, tələbə heyəti və digər qonaqlar iştirak ediblər.

Tamaşadan əvvəl ADMİU-nun rektoru Ceyran Mahmudova qonaqları salamlayaraq hər birinə rəhbərlik etdiyi ali təhsil ocağının yubileyinə göstərdikləri diqqətə görə təşəkkür edib, "Maqbet" tamaşasının yeni formatda səhnələşdirildiyini diqqətə çatdırıb.

AMEA-nın prezidenti İsa Həbibbəyli çıxışında bütün kollektivi yubiley münasibətilə təbrik edib, ali təhsil müəssisəsinin Azərbaycanın milli mədəniyyət və incəsənətinə layiqincə xidmət göstərdiyini vurğulayıb.

Daha sonra qonaqlar Vilyam Şekspirin "Maqbet" əsəri əsasında hazırlanmış eyniadlı faciəyə tamaşa ediblər. Tamaşada rolları Əməkdar artistlərlə yanaşı, ADMİU-nun tələbə və məzunlarından ibarət heyət canlandırıb.

# Elm və təhsil sahəsində əməkdaşlıq müzakirə olunub

## Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi ilə görüş



Dekabrın 19-da elm və təhsil nazirinin müavini Firudin Qurbanov Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi cənab Mixail Şvıdkoy ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub.

# Ali təhsil müəssisələri arasındakı əməkdaşlıq genişləndirilir

## Elm və təhsil nazirinin müavini İstanbul Texniki Universitetinin rektoru ilə görüşüb

Dekabrın 18-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Türkiyə Respublikası İstanbul Texniki Universitetinin rektoru İsmail Koyuncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı ölkəmizin ali təhsil müəssisələri ilə İstanbul Texniki Universiteti arasındakı əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub.



# İlkin bacarıqlardan davamlı inkişafa

## "Peşə təmayüllü siniflər" hesabatını verdi

**Yaşadığımız XXI əsrin gəncləri daha praqmatik, analitik düşüncə tərzi ilə öz sələflərindən xeyli fərqlənir. Bu günün gəncləri nə istədiyini yaxşı bilir və öz istəklərini necə realizə etmək üçün axtarışlar edərək gələcək karyera yolunda inamla addımlayırlar. Və çox maraqlıdır ki, artıq yeniyetmələrimiz daha çox bu gün əmək bazarında ehtiyac duyulan müxtəlif peşələrə yiyələnməyə üstünlük verirlər.**






Bu peşələrə əlçatanlığı isə Elm və Təhsil Nazirliyi təmin edir. Orta ümumtəhsil müəssisələrinin X-XI sinif şagirdləri üçün həyata keçirdiyi "Peşə təmayüllü siniflərin təşkili" layihəsi ilə. Elm və Təhsil Nazirliyinin dəstəyi ilə reallaşdırılan "Peşə təmayüllü siniflər" 2019-2020-ci tədris ilindən fəaliyyətə başlayıb. Onu da qeyd edək ki, ümumi orta təhsil bazasında təhsilalanların müxtəlif peşələr üzrə ilkin bilik və bacarıqlara yiyələnməsinə şərait yaradan "Peşə təmayüllü siniflər"ə paytaxtla yanaşı, respublikamızın bir çox bölgələri də daxil olmaqla 196 məktəbdə 4000-dən çox şagird cəlb olunub.Və hər ötən il adıçəkilən siniflərdə əmək bazarında bu gün ehtiyac duyulan peşələrə yiyələnmək istəyən şagirdlərimizin sayı artmaqdadır.

Elə dekabrın 18-də Elm və Təhsil Nazirliyinin dəstəyi ilə fəaliyyət göstərən "Peşə təmayüllü siniflərin təşkili" layihəsinin 2019-2023-cü tədris illərinin yekunlarına həsr olunan "İlkin bacarıqlardan davamlı inkişafa" adlı hesabat tədbirində də ötən müddət ərzində layihənin pilot fəaliyyətinin yekunlarına dair məlumatlar, əldə edilən uğurlar və gələcəkdə nəzərdə tutulan fəaliyyətlər diqqətə çatdırıldı.

### Uğurlu fəaliyyətin nəticələri...

Tədbirdən öncə iştirakçılar peşə təmayüllü sinif şagirdlərinin hazırladıqları əl işlərindən ibarət sərgi stendləri ilə tanış oldular.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Tədbirdə elm və təhsil nazirinin müşaviri, Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Elnur Əliyev çıxış edərək "Peşə təmayüllü siniflər"in fəaliyyət istiqamətlərinə toxundu. Hesabat tədbirinin faydalı müzakirələrin aparılması baxımından yaddaqalan olacağına əminliyini ifadə etdi.

Çıxış üçün söz alan elm və təhsil nazirinin müavini Həsən Həsənli peşəyönümlü siniflərin şagirdlərin erkən yaşda maraqlarının müəyyənləşdirilməsi baxımından önəmindən söz açdı. Nazir müavini bu siniflərdən məzun olan şagirdlərin əmək bazarına daha hazırlıqlı olduqlarını söylədi. Layihənin əsas məqsədinin ümumi orta təhsil bazasında təhsilalanların düzgün peşə seçiminə, ümumi təhsildə keyfiyyətin artırılmasına dəstək göstərmək, müxtəlif peşələr üzrə ilkin bilik və bacarıqlara yiyələnmələrinə şərait yaratmaq, habelə təhsilalanları peşə ixtisasları barədə məlumatlandırmaq və əmək bazarını tələblərə uyğun işçi qüvvəsi ilə təmin etmək olduğunu söylədi: "Ölkə başçısı İlham Əliyev tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsasən 2026-cı ilə qədər ümumi təhsildə peşə təmayüllü siniflərin fəaliyyət göstərdiyi məktəblərin xüsusi çəkisinin 15 faizə çatması planlaşdırılıb".

Sonra peşə təmayüllü siniflərin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olundu.

### Layihəyə hər ötən il maraq daha da artır

"Layihədə iştirak edən şagirdlər peşə təmayüllü siniflərin faydalı olduğunu söyləyirlər və bu siniflərdə öyrəndikləri peşələrdən məmnundurlar. Bu fikri "Peşə təmayüllü siniflərin təşkili" layihəsinin rəhbəri Xanım Şabanova 2019-2023-cü tədris illərində əldə edilən keyfiyyət nəticələrini özündə əks etdirən təqdimatı zamanı qeyd edib. Bildirilib ki, X-XI sinif şagirdləri üçün nəzərdə tutulan layihə ümumi orta təhsil bazasında təhsilalanların müxtəlif peşələr üzrə ilkin bilik və bacarıqlara yiyələnməsinə şərait yaratmaqla bərabər, eyni zamanda onları peşə təhsilinə hazırlayır: "Layihə çərçivəsində X-XI sinif şagirdlərinə xidmət, təmir-tikinti, kənd təsərrüfatı, İKT profilləri üzrə dərslər keçirilir. Bu siniflərdə şagirdlər həm nəzəri biliklər, həm də praktiki bacarıqlar əldə edirlər. Peşə təmayüllü siniflərdən məzun olan şagirdlər tam orta təhsil haqqında attestatla birlikdə, ilkin peşə bacarıqlarına yiyələndiklərini təsdiqləyən iki dövlət nümunəli sertifikat da əldə etmiş olurlar". Xanım Şabanova görülən işlər, reallaşdırılan tədbirlər barədə geniş məlumat verdi, qarşıda duran hədəfləri diqqətə çatdırdı.

### Peşəyə bir addım yaxın olanlar

Peşə təmayüllü siniflərin məzunları Əmrah Qurbanov, Nahidə Mədətova, hazırda adıçəkilən sinifdə təhsil alan Nəzrin Məmmədova öyrəndikləri bilik və bacarıqlardan məmnun qaldıqlarını, əmək bazarına və iş həyatına məktəb partası arxasından artıq hazır və gələcək karyeralarını qurmağın daha əlçatan olduğunu söylədilər.

### "Ümumi təhsildən əmək bazarına: çətinliklər və fürsətlər"

Daha sonra "Ümumi təhsildən əmək bazarına: çətinliklər və fürsətlər" mövzusunda panel müzakirə təşkil olundu. Layihənin rəhbəri Xanım Şabanovanın moderatorluq etdiyi müzakirədə təhsil üzrə beynəlxalq ekspert Rainer Gerke, Azərbaycan HR İnstitutunun direktoru Emil Hüseynov və "Future Bright" şirkətinin Azərbaycan üzrə direktoru Könül Əliyeva iştirak edərək, ümumi təhsildən əmək bazarına keçiddən, bununla bağlı Azərbaycan, eləcə də dünya təcrübəsindən, peşə təhsili ilə bağlı karyera istiqamətli təcrübə proqramlarından, şəxsi inkişaf və motivasiya sahəsində təlim və layihələrdən, dünyada lazım olacaq gələcək peşələrdən söz açdılar. Mövzularla bağlı geniş fikir mübadiləsi aparıldı.

Tədbirin sonunda peşə təmayüllü siniflərin təşkili və icrasında əməyi keçən əməkdaşlara təşəkkürnamələr təqdim olundu.

**Samirə KƏRİMOVA**

# Nazir müavinləri bölgələrdə olublar

## Firudin Qurbanov Siyəzəndə gənc müəllimlərlə görüşüb, İnteqrasiya təlimli internattipli gimnaziyada olub








Dekabrın 20-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Siyəzən rayonuna səfər edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində yerləşən abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Daha sonra Siyəzən şəhəri Mikayıl Müşfiq adına 2 nömrəli tam orta məktəbdə gənc müəllimlərlə görüş keçirilib. Görüşdə Şabran və Siyəzən rayonlarında fəaliyyət göstərən 400-ə yaxın müəllim və təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Müəllimləri salamlayan Firudin Qurbanov çıxışında ölkə iqtisadiyyatının artan dinamika ilə inkişafından və davamlılığın təmin olunması istiqamətində məhz təhsil müəssisələrində yetişən insan kapitalının rolundan, eləcə də tədris ocaqları və təhsilverənlərdən gözləntilərdən danışıb. Nazir müavini həmçinin təhsil sahəsində həyata keçirilən islahatların bu inkişafın nəticəsi olduğunu vurğulayıb.

Firudin Qurbanov qeyd edib ki, hər bir müəllim şagirdlərinə həssas yanaşmalı, ilk növbədə sağlam düşüncəli insan, daha sonra isə dövrün tələblərinə uyğun bacarıqlara sahib vətəndaş yetişdirməlidir. Müasir texnologiyaların həyatımızdakı roluna diqqət çəkən nazir müavini müəllimin daim öz üzərində işləməli olduğunu, zamanla ayaqlaşa bilən, yeniliklərlə maraqlanıb onu işinə tətbiq edən təhsilverənin müasir şagirdi lazımi şəkildə formalaşdıra biləcəyini vurğulayıb.

Görüşdə həmçinin Siyəzən və Şabran rayonları üzrə şagirdlərin təlim nəticələri təhlil olunub, təhsil işçilərini maraqlandıran suallar cavablandırılıb.

Firudin Qurbanov səfəri çərçivəsində Siyəzən şəhəri İnteqrasiya təlimli internattipli gimnaziyaya da baş çəkib. Nazir müavini müəssisənin şəraiti ilə tanış olub, tədrisin təşkili vəziyyəti ilə maraqlanıb.

Sonra Siyəzən şəhərində vətəndaşların qəbulu keçirilib. Nazir müavini vətəndaşlar tərəfindən edilən hər bir müraciətin operativ olaraq araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun şəkildə həlli ilə bağlı tapşırıqlar verib.

## İdris İsayev Zərdabda bir sıra təhsil müəssisələrində olub, vətəndaşları qəbul edib








Dekabrın 21-də elm və təhsil nazirinin müavini İdris İsayev Zərdab rayonuna səfər edib.

Əvvəlcə şəhərin mərkəzində ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Sonra nazir müavini Zərdab şəhəri H.Zərdabi adına 1 nömrəli məktəb-lisey, Zərdab şəhəri 2 nömrəli körpələr evi-uşaq bağçası və Zərdab rayonu Peşə liseyində tədris prosesini izləyib, yaradılmış şəraitlə tanış olub.

Daha sonra nazir müavini adıçəkilən müəssisələrin kollektivi ilə görüşüb, onlarla söhbət aparıb və təkliflərini dinləyib.

İdris İsayev Zərdab rayonuna səfəri çərçivəsində təhsil müəssisələrinin rəhbərləri ilə də görüşüb. Heydər Əliyev Mərkəzində keçirilən görüşdə çıxış edən Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov rayon üzrə cari tədris ilində əldə olunmuş nəticələr, uğurlar və görülmüş işlər barədə məlumat verib.

Daha sonra çıxış edən nazir müavini İdris İsayev ölkə başçısının uğurlu daxili siyasəti nəticəsində işğaldan azad olunan ərazilərdə təhsilin bərpası məsələlərinə diqqət çəkib. Nazir müavini nazirlik tərəfindən ötən dövr ərzində təhsil islahatlarının aparıldığını, təhsilverənlərin sertifikatlaşdırılması prosesinin növbəti illərdə yenidən təşkil olunacağını, eləcə də məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsinin zəruriliyini qeyd edib.

İdris İsayev həmçinin ümumi təhsil müəssisələrinin idarə olunması və təşkili baxımından qarşıda duran hədəf və istiqamətlər barədə danışıb.

Daha sonra təhsil işçilərinin sualları cavablandırılıb, təklifləri dinlənilib.

Nazir müavini İdris İsayev səfər çərçivəsində vətəndaşları qəbul edib, müraciətlərin operativ araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun şəkildə həlli ilə bağlı tapşırıqlar verib.

# Azərbaycan Tələbələrinin Elm və İnnovasiya Forumu

**“Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin “Elm və İnnovasiya” proqramının təşkilatçılığı, Təhsilin İnkişafı Fondu və Azərbaycan Texniki Universitetinin dəstəyi ilə “Azərbaycan Tələbələrinin Elm və İnnovasiya Forumu” keçirilib.**

Tələbələri elm və innovasiyalar istiqamətində davamlı fəaliyyətə cəlb etmək, Azərbaycan tələbələrinin elm sahəsində aparıcı mövqe tutmalarına yön vermək, həmçinin elmi araşdırmaların və sərbəst məqalə yazmağın əsaslarını öyrətmək məqsədi ilə həyata keçirilmiş forumda ali təhsil müəssisələrinin təbiət elmləri ixtisaslarında bakalavr və magistr pillələrində təhsil alan 80 tələbə iştirak edib.

Forum Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, daha sonra Ulu Öndər Heydər Əliyevin və bütöv Azərbaycan uğrunda canından keçmiş qəhrəmanlarımızın əziz xatirəsinin ehtiram və qürur hissi ilə yad edilməsi ilə başlayıb.

Giriş nitqi ilə çıxış edən Təhsilin İnkişafı Fondunun Layihələrin idarə olunması və biznesin inkişafı şöbəsinin əməkdaşı Rəsul Həşimov tələbələri salamlayıb və elm yolunda daim öz üzərində çalışan tələbələrin fəaliyyətinin təqdirəlayiq olduğunu qeyd edərək ölkəmizdə tələbələr üçün yaradılan bir çox təhsil imkanlarına əlçatanlıqdan söz açıb.

Forumun açılış mərasimi “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin sədri Leyla Zeynalovanın çıxışı ilə davam edib. O, forumun elm sahəsindəki gələcək liderləri bir araya toplamaq, həmçinin tələbələri öyrətmək və ilhamlandırmaq məqsədi ilə təşkil edildiyini vurğulayıb.



Tədbirin davamında tələbələr üçün Milli Onkologiya Mərkəzinin Molekulyar Onkologiya laboratoriyasının müdiri Leylaxanım Məlikova, Amerika Psixoloqlar Assosiyasının üzvü, Psixi alqoritimlər nəzəriyyəsinin müəllifi Klinik Psixoloq Rövşən Nəzərli, Eksperimental Psixoloji laboratoriyanın direktoru Fidan Qənbərli, Milli Onkologiya Mərkəzinin həkimi Səbinə Mehdizadə, Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Nərgiz Bayramova, ADA Universitetinin müəllimi, sosial tədqiqatçı İnqilab Şahbazov, İRİA-nın İnnovasiya Ekosistemi departamentinin baş layihə meneceri Camal Ağayev, “Zəhra kosmosda” platformasının təsisçisi Zəhra İmanova, ADMİU-nun Keyfiyyətin Təminatı və Strateji Planlaşdırma şöbəsinin müdir müavini Elçin Cəfərov və Corc Vaşinqton Universitetinin doktorantı Sani Salehin iştirakı ilə panel sessiyalar həyata keçirilib.

“Yeni nəsil elmdə səyahət”, “Məqalə yazmaq sənəti”, “İnnovasiya və gələcəyə yönəlik həllər” mözularında keçirilmiş panel sessiyaların sonunda forum iştirakçılarının sualları cavablandırılıb və maraqlı müzakirələr aparılıb.

Qeyd edək ki, forum çərçivəsində elm və innovasiya sahəsindəki geniş spektrdəki tədqiqatları və ideyaları özündə əks etdirən 9 poster təqdimat sərgilənib və spikerlər tərəfindən dəyərləndirilib.

# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİNƏ BAXILMASI VƏ TƏHSİL HÜQUQUNUN DAHA SƏMƏRƏLİ TƏMİNİ SAHƏSİNDƏ BİRGƏ ƏMƏKDAŞLIQ



## Elm və Təhsil Nazirliyi ilə Ombudsman Aparatı arasında görüş keçirilib

**Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında vətəndaş müraciətlərinə baxılması və təhsil hüququnun daha səmərəli təmini sahəsində birgə əməkdaşlıq istiqamətləri mövzusuna həsr edilmiş görüş keçirilib.**

Görüşdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı, hər iki qurumun müvafiq struktur bölmələrinin rəhbərləri və digər məsul vəzifəli şəxsləri iştirak ediblər.

Görüş zamanı təhsil hüququnun təmini sahəsində hər iki qurumun ünvanına daxil olan müraciətlərin araşdırılması, bu sahədə qarşıya çıxan problemlərin birgə həlli, hüquqi maarifləndirmə istiqamətləri və digər əlaqədar məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüş zamanı Elm və Təhsil Nazirliyinə il ərzində daxil olan müraciətlərin icra vəziyyətinə dair təqdimat nümayiş olunub.

Sonda qeyd olunan sahələrdə daha səmərəli əməkdaşlığın təmin edilməsi məqsədilə iki qurum arasında mövcud məlumat mübadiləsinin təkmilləşdirilməsi, qarşıya çıxan problemlərin həlli məqsədi ilə birgə işçi qruplarının yaradılması, insan hüquqlarının təşviqi sahəsində maarifləndirici tədbirlərin keçirilməsinin zəruri olduğu diqqətə çatdırılıb.

# Regional təhsil idarələrinin rəhbərləri və maliyyə-mühasibatlıq işçiləri üçün praktiki seminar



**Dekabrın 20-də Bakı Şəhəri üzrə Təhsil İdarəsi və regional təhsil idarələrinin rəhbərləri, eləcə də maliyyə-mühasibatlıq işçilərinin iştirakı ilə praktiki seminar keçirilib.**

Əvvəlcə Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov seminarın məqsədi, maliyyə-mühasibatlıq işçilərinin vəzifə və funksiyalarından irəli gələn məsuliyyətləri, onların bilik və bacarıqlarının artırılmasının zəruriliyindən danışıb. Seminarın əhəmiyyətini vurğulayan şöbə müdiri dövlət büdcəsində təhsil xərclərinin həcmi, qarşıda duran vəzifələr barədə iştirakçıları məlumatlandırıb, bir sıra təklif və tövsiyələr verib.

Daha sonra seminar Maliyyə, Təhsilin iqtisadiyyatı, Audit şöbələrinin əməkdaşlarının müvafiq təqdimatları və müzakirələrlə davam etdirilib.

Seminarın sonunda isə suallar cavablandırılıb, təklif və tövsiyələr səsləndirilib.

# Koreyada innovasiya ekosistemi

## Tədqiqat və inkişaf layihələri inkişaf etdirilir

**Elm hər bir ölkənin inkişaf strategiyasının əsas komponenti və biliyə əsaslanan iqtisadiyyatın qurulmasında və innovasiyaların təşviqində əhəmiyyətli rol oynayan ən böyük amillərdəndir. Tədqiqat və inkişaf layihələri elmin bir parçası olub innovasiyanı şövq edən əsas göstəricilərdəndir. Bu məqalədə tədqiqat və inkişaf layihələrinin (T&İ) innovasiya ekosisteminin inkişafına göstərdiyi təsir Cənubi Koreya təcrübəsində araşdırılıb. İlk olaraq T&İ layihələrinin sözügedən ekosistemdəki roluna toxunulur. Daha sonra isə innovasiya ekosistemində vacib rol oynayan maraqlı tərəflər araşdırılır.**

### T&İ layihələrinin innovasiya ekosistemindəki artan rolu

Bir qədər keçmişə gedib tədqiqat xərclərinin davamlı olaraq necə artdığını müşahidə etsək görərik ki, tədqiqata ayrılan xərclər 1980-ci və 1994-cü illər arasında ÜDM-in 0,77%-dən 2,33%-ə yüksəlib. Sonrakı illərdə Koreya Respublikası tədqiqat və inkişaf layihələrinə (T&İ) ayrılan xərcləri daha da artırmağa davam edib, beləliklə ölkədə elmə ayrılan xərclər 2006-cı ildə ÜDM-in 3,2%-nə çataraq, dünyada ən yüksək göstəricilərdən biri olub (REF).

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən 2009-cu ildə Koreyanın elm, texnologiya və innovasiya (ETİ) sahəsində siyasəti təhlil edilib və müəyyən təkliflər verilib. Bu təkliflər daha çox ETİ sahəsində qurumlararası koordinasiyanın gücləndirilməsi və universitetlər, dövlət və özəl tədqiqat institutları arasındakı əlaqələrinin genişləndirilməsinə yönəlib. Təkliflər əsasında Koreya hökuməti tərəfindən tədqiqat və inkişaf layihələrinə ayrılan xərclərin payında KOB-ların qlobal rəqabətliliyinin genişləndirilməsinə xüsusi diqqət verilib və dövlət tədqiqat institutları tərəfindən onların tədqiqatlarının dəstəklənməsinə çağırış edilib. Koreyada 2018-ci ildə KOB-lar tədqiqat və inkişaf sahəsində ümumi vergi güzəştləri alanların 79%-ni təşkil edib ki, bu göstərici sözügedən sahədə vergi dəstəyinin 40%-ni təşkil edib. Həmçinin, İƏİT tərəfindən hazırlanan digər tövsiyələr əsasında radikal innovasiya edən şirkətlər üçün vergi güzəştlərinə yenidən baxılması, məsləhətlərin və inkubasiya xidmətlərinin yaxşılaşdırılması, maliyyəyə çıxışın optimallaşdırılması, texnologiya əsaslı şirkətlərin inkişafının daha da təşviq edilməsi və start-up və birgə vençur müəssisələri vasitəsilə ali təhsil müəssisələrində yaranan texnologiyaların kommersiyalaşdırılmasının dəstəklənməsi prosesi də Koreyada sürətləndirilib.

Vaxt keçdikcə bu T&İ layihələrinə ayrılan diqqətin qarşılığı olaraq aparılan tədqiqat xərclərinin intensivliyinə görə ölkə dünyada ikinci yerdə qərarlaşıb. Qlobal İnnovasiya İndeksinin 2023-cü ildə yayımlanan hesabatına əsasən Cənubi Koreyanın 132 ölkə arasında tədqiqat və inkişaf layihələrinə ayrılan xərcləri ÜDM-dəki payı 4.9% təşkil edib. Cənubi Koreyada sözügedən layihələrin maliyyələşdirilməsində həm dövlət, həm də özəl müəssisələr, koordinasiya olunmasında isə əsas rolu Elm və İKT Nazirliyi oynayır.

Koreyada innovasiyaların inkişafının əsas istiqamətləri sənaye klasterlərinə uyğunlaşdırılıb (kimya sənayesi, avtomobil və gəmi tikintisi, radio avadanlıqlarının istehsalı kimi). Bu növ sənayelərə verilən diqqətin nəticəsində innovasiyaların inkişafı Hundai, Samsung, LG kimi texnologiya nəhənglərinin yaranması ilə nəticələnib. Bu kompaniyaların hər birində tədqiqat mərkəzləri və ya tədqiqat əsaslı məhsul inkişafı mövcuddur.

### İnnovasiya ekosisteminin əsas maraqlı tərəfləri

Koreya innovasiya ekosistemi sənaye, universitetlər, hökumət, qeyri-hökumət təşkilatları və investisiya icmasından ibarət olaraq müxtəlif maraqlı tərəflərə ayrılır. Ölkədə bu sahənin inkişafında iştirak edən tərəflər iki yerə ayrılır: qərarverici dövlət orqanları və özəl sektorlar.

### Dövlət orqanları

Koreya elm, təhsil və innovasiya sahəsində strateji istiqamətləri təmin etmək, planları və büdcələri uyğunlaşdırmaq və bütün hökumət daxilində nəzarəti təmin etmək üçün unikal STI idarəetmə strukturu yaradıb. Bu strukturun özəlliyi xüsusilə Elm və Texnologiya üzrə Prezident yanında Məşvərət Şurasının və Elm və İKT Nazirliyinin Elm, Texnologiya vasitəsilə STI sisteminin hökumətlərarası koordinasiyasında güclü mandatındadır. İnnovasiyalar Ofisi ("STI Ofisi") Koreya hökuməti elmi tədqiqat fəaliyyətlərinin təşviqində və dəstəklənməsində mühüm rol oynayır.

Qeyd edək ki, hökumət müxtəlif sahələrdə tədqiqat və inkişaf layihələrini dəstəkləmək üçün tədqiqat qrantları verir. Bu qrantlar adətən müsabiqə əsasında verilir və tədqiqatçılar və təşkilatlar layihənin məqsədlərini, metodlarını və gözlənilən nəticələrini əks etdirən təkliflər təqdim edirlər. Qrantlar fundamental tədqiqatlar, tətbiqi tədqiqatlar, texnologiyanın inkişafı və kommersiyalaşdırılması da daxil olmaqla geniş fəaliyyət istiqamətlərini əhatə edir.




*2000-2022-ci illərdə Cənubi Koreyada T&İ layihələri üçün ümumi daxili xərclər*

### Özəl sektorla əlaqə

Koreya biznes tədqiqatı və inkişafı sahəsində güclü investisiya göstəricilərinə malikdir. Son on il ərzində Koreya şirkətləri elmi-tədqiqat və inkişaf xərclərini əhəmiyyətli dərəcədə artıraraq, 2010-cu ildəki 39 milyard ABŞ dolları göstəricisindən 2019-cu ildə 82,3 milyard ABŞ dollarına qədər, yəni iki dəfədən çox artırıb. Bu göstərici İƏİT (OECD) ölkələri arasında ən yüksək göstəricidir. Qeyd edək ki, T&İ fəaliyyətinin böyük hissəsi "chaebols" kimi tanınan böyük sənaye konqlomeratları daxilində cəmləşib. 2019-cu ildə bu konqlomeratlardan 10-u ümumi olaraq özəl sektor tərəfindən T&İ layihələrinə edilən investisiyaların 47%-ni təşkil edib və özəl sektorda T&İ xərclərinin artımı əsasən bu konqlomeratların yalnız dördü tərəfindən idarə olunub. "Chaebols" adlanan Samsung, LG və Hyundai kimi Cənubi Koreya konqlomeratları ölkənin tədqiqat və inkişafında mühüm rol oynayır. Bu şirkətlər yeni texnologiyalar inkişaf etdirmək, mövcud məhsulları təkmilləşdirmək və qlobal bazarda rəqabətədavamlı qalmaq üçün tədqiqat və innovasiyalara böyük sərmayə qoyurlar.

### Vençur kapitalistləri və investorlar

Vençur kapitalistləri və investorlar Cənubi Koreyada tədqiqat və inkişaf layihələri üçün əhəmiyyətli maliyyə vəsaiti təmin edirlər. Onlar startapların dəstəklənməsi, texnologiya transferi və tədqiqat nəticələrinin kommersiyalaşdırılmasında əsas rol oynayırlar. Koreya Vençur İnvestisiya Korporasiyası (KVIC) kimi hökumət tərəfindən dəstəklənən təşəbbüslər də startaplar və innovasiya layihələri üçün maliyyə və dəstək verir.

Cənubi Koreyada startapları və innovativ layihələri maliyyələşdirən canlı vençur kapitalı sənayesi var. Vençur kapitalı firmaları perspektivli tədqiqat təşəbbüslərinə və böyümə potensialı olan şirkətlərə sərmayə qoyur. Bundan əlavə, hökumət startaplara və yüksək inkişaf edən şirkətlərə maliyyə dəstəyi verən Koreya Vençur İnvestisiya Korporasiyası (KVIC) və Koreya İnkişaf İnvestisiya Korporasiyası (KGIC) kimi proqramlar vasitəsilə səhm investisiyalarını dəstəkləyir.

Ölkənin ən uğurlu inkubatorlarından biri olan TIPS son 10 ildə biznesini bağlamış inkubator məzunlarının faizi cəmi 3% təşkil edib. 10 il ərzində inkubasiyanın rezident startapları ümumilikdə 9,8 milyard dollar vəsait toplayıb. Bu investisiyaların 90%-i Koreyadandır.

Qeyd olunması vacib məqamlardan biri də ölkədə fəaliyyət göstərən xarici startaplardır. Koreyada çox az sayda xarici startap var. Fəaliyyət göstərən startaplar isə daha çox Çin və qonşu ölkələrdəndir. Buna səbəb olan faktorlardan biri koreyalı investorlar xaricdən startaplara investisiya qoymağı üstün tutmurlar. Əlavə olaraq bazarda xarici startapların olmaması onların minimal rəqabətdə inkişaf etməsinə şərait yaradır.

Startap kimi qeyri-struktura malik təşkilatların ölkəmizdə mövcud olan startaplarla müqayisədə ideyaları daha çox elmi araşdırmalara, tədqiqatlara əsaslanır.

Koreya qlobal təşkilatlar, tədqiqat institutları və şirkətlərlə bilikləri bölüşmək, resurslara çıxış əldə etmək və birgə tədqiqat və inkişaf layihələri həyata keçirmək üçün əməkdaşlıq edir. Buraya Birləşmiş Millətlər Təşkilatı, beynəlxalq tədqiqat institutları və xarici universitetlər kimi təşkilatlarla tərəfdaşlıq daxildir. Hökumət Qlobal Araşdırma və İnkişaf Mərkəzi (GRDC) kimi proqramlar vasitəsilə xarici tərəfdaşlarla birgə tədqiqat layihələrinə maliyyə dəstəyi verir. Bu imkanlar bilik mübadiləsini, qlobal resurslara çıxışı və birgə tədqiqat əməkdaşlığını asanlaşdırır.

### Nəticə

Tədqiqat və inkişaf layihələrinin Cənubi Koreyanın innovasiya ekosisteminə təsiri geniş və çoxyönlüdür. Bu layihələr ölkədəki sənaye klasterlərinə, universitetlərə, hökumət orqanlarına və özəl sektorlara daxil olan müxtəlif maraqlı tərəflər tərəfindən dəstəklənir. Qlobal İnnovasiya İndeksinin nümayiş etdiyi kimi, Cənubi Koreya bu sahədə ən yüksək göstəricilərdən birinə sahibdir və intensiv tədqiqat xərcləri ilə müstəqil elmi potensialını artırmağa nail olub. Dövlət orqanları, özəl sektor və vençur kapitalistləri, ölkənin innovativ potensialını gücləndirmək üçün birgə çalışırlar. Dövlət tərəfindən verilən tədqiqat qrantları, müxtəlif sahələrdəki tədqiqat və inkişaf layihələrini dəstəkləyir. Özəl sektor, xüsusilə "chaebols" adlanan böyük sənaye konqlomeratları ilə əlaqəli olaraq, mühüm investisiyalar edir və bu şirkətlər dünya bazarında müstəqil rəqabətlə qalmağa nail olur. Vençur kapitalistləri isə startapları dəstəkləyərək ölkədə innovasiya atmosferini canlı tuturlar.Elmi potensialın artırılması, innovativ layihələrin dəstəklənməsi və beynəlxalq əməkdaşlıq, ölkəni daha konkurent və dinamik bir innovasiya məkanı halına gətirir.

**Həsən ƏLİLİ,**
**Təhsil İnstitutunun Təhsildə İnnovasiyalar şöbəsinin baş mütəxəssisi**

# AZƏRBAYCAN XALQININ GƏLƏCƏYİ, MÜSTƏQİL AZƏRBAYCANIN GƏLƏCƏYİ GƏNCLƏRİN BU GÜN ALDIQLARI BİLİK, TƏHSİL VƏ TƏRBİYƏDƏN ASILIDIR



*Mən Prezident təqaüdünə layiq görülmüş bizim sevimli gənclərimizi xüsusi təbrik edirəm. Ümidvaram ki, onlar qəbul imtahanlarında göstərdikləri yüksək nəticələri universitetdə oxuyacaqları vaxtda da nümayiş etdirəcəklər və universitetləri bitirənədək Prezident təqaüdünü hər il alacaqlar... Beləliklə, mən üzümü universitetlərə, müəllim-professor heyətinə, təhsil sahəsində işləyən bütün vətəndaşlarımıza tuturam ki, Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır.*

**Ümummilli Lider Heydər Əliyevin 3 sentyabr 2001-ci il tarixində keçirilmiş ali məktəblərə ən yüksək balla qəbul olunmuş gənclərlə görüşündəki nitqindən**

# İlk təqaüdçülər

## Təhsildə yüksək nailiyyətləri olan 100 tələbə Heydər Əliyev adına təqaüdü alacaq

**Dekabrın 16-da Azərbaycan müəllimlərinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş XVI qurultayı başa çatıb. Qurultayın bağlanış mərasimində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsis edilmiş ali təhsilin bakalavriat səviyyəsində əyani formada təhsil alan və təhsildə yüksək nailiyyətləri olan 100 tələbəyə "Heydər Əliyev adına təqaüd" təqdim olunub. Xatırladaq ki, təqaüd ali təhsil müəssisələrində bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində əyani formada təhsil alan, təhsildə yüksək nailiyyətləri olan tələbələrə verilib. Sərəncama əsasən, Elm və Təhsil Nazirliyi təqaüdçülərə dövlət büdcəsinin vəsaiti hesabına 3000 manat məbləğində mükafatı birdəfəlik ödəyir.**

### "Bu təqaüd gələcəkdə həm hərbi, həm də mülki sahədə fəaliyyətimi stimullaşdırır"



Heydər Əliyev adına Hərbi İnstitutun IV kurs tələbəsi Nurlan Bəhmənli də Heydər Əliyev adına təqaüdçülərindəndir. Yardımlı rayonu Ənvər Mirzəyev adına kənd orta məktəbinin və Cəmşid Naxçıvanski adına hərbi liseyin məzunudur: "Heydər Əliyev adına Hərbi İnstitutda Qoşun kəşfiyyatı ixtisası üzrə təhsil alıram. Təhsil müddətində 4 semestr zərbəçi, 1 semestr əlaçı akademik göstəricisinə nail olmuşam. Hazırda ortalama balım 98.7-dir. "Məktəb birincisi" statusum var. "Komando başlanğıcı kursu"nu birinciliklə bitirmişəm".

Nurlan Bəhmənli uğurlu 100 gəncdən biri kimi, Heydər Əliyev adına təqaüdə layiq görülməsindən qürurla danışıb: "Bu təqaüd gələcəkdə həm hərbi, həm də mülki sahədə fəaliyyətimi stimullaşdırır. Düşünürəm ki, bu uğur məni, mənim kimi digər gəncləri daha da həvəsləndirəcək. Təqaüdə görə Prezident İlham Əliyevə öz təşəkkürümü bildirirəm. Ali Baş Komandanımızı əmin etmək istəyirəm ki, qazandığım bütün uğurları Azərbayacana və xalqımıza həsr edəcəyəm".

Nurlan vəsaitdən ailəsinin bəzi ehtiyaclarını ödəmək üçün də istifadə edəcək: "Valideynlərimin bəzi xərclərini qarşılayacağam. Bir də gələcəkdə işimi səmərəli qurmaq üçün texnologiyaya ehtiyacım var. Bu ehtiyacımı təmin edəcəyəm. Kibertəhlükəsizlik kurslarına yazılmağı düşünürəm, məqsədim müasir dövrün tələblərinə uyğun müəyyən qədər yeni texnologiya və sistemlərin iş prinsipinə, bütün sirlərinə yiyələnməkdir".

### "Bu qayğı gənclərimizi daha da həvəsləndirəcək"



Təqaüdçülərdən biri də Selcan Kərimovadır. Azərbaycan Texniki Universitetində "Kompüter mühəndisliyi" ixtisası üzrə ingilis dilində təhsil alır. Ortalama balı 99.9-dur. Selcan hazırda "Erasmus+" təqaüdü çərçivəsində Romadadır. O, Sapienza Universitetində 1 semestr təhsil alacaq. Ona görə də təqdimat mərasimində onu anası Pəri Kərimova təmsil edib: "Təəssüf edirəm ki, təqaüdünü özü ala bilmədi. 100 iştirakçı arasında onun da səhnəyə çıxdığını görməyi çox istəyərdim. Özü burada olmasa da, bu uğuru məni çox qürurlandırdı".

Selcanın atası da, anası da müəllimdir: "Hələ məktəb dövründən Selcan böyük nailiyyətlər qazanıb. Şahmat üzrə 3-cü dərəcəyə sahibdir. Fortepiano ixtisası üzrə Şövkət Ələkbərova adına musiqi məktəbinin məzunudur. "Xəmsə" Milli İntellektual Oyunu üzrə "Yaz kuboku"nun qalibi olub. İnformatika fənni üzrə respublika fənn müsabiqəsinin, Astronomiya Olimpiadasının qaliblərindəndir, Misirdə keçirilmiş AFS global "STEAM Academy" təqaüdünün qalibi olub".

Pəri Kərimova qızının uğurları siyahısına əlavə olan bu son uğurunun onu stimullaşdıracağını düşünür: "Təşəkkür edirəm bu layihəyə, bu diqqət və qayğıya görə. İnanıram ki, bu qayğı gənclərimizi daha da həvəsləndirəcək. Bundan sonra qızım və hər bir təqaüdçü daha böyük səylə çalışacaq".

Anası deyib ki, Selcan aldığı bu təqaüdü tamamilə özünün inkişafına xərcləyəcək: "Valideyni olaraq onun bir manatını da təhsilindən kənara xərcləməsini istəmərəm".

**Ruhiyyə DAŞSALAHLI**

# Söz müəllimlərindir

## Onlar XVI qurultayda iştiraklarından qürurla danışırlar

Azərbaycan müəllimlərinin növbəti qurultayı başa çatdı. Növbəti 5 il üçün hər biri öz qeydlərini götürdü, təkliflərini qeydə aldırdı. Fəaliyyəti dövründə ilk dəfə qurultay iştirakçısı olan müəllimlər buradan böyük ruh yüksəkliyi, özgüvən, məmnuniyyət hissi ilə ayrıldı. Aralarında təəssüratlarını "Azərbaycan müəllimi" ilə bölüşənlər də oldu.



### "Rayonumuza və məktəbimizə zəngin düşüncələrlə qayıdıram"

Xaçmaz rayonundan qurultaya qatılan ibtidai sinif müəllimi Bibixanım Mirzəmmədova şəhid anasıdır: "Şəhid Sərxan Mirzəmmədovun anasıyam. Bunu deməkdən qürur duyuram. Bu mərtəbəyə məni oğlum çatdırıb. Qəhrəmanlığı ilə özü Eloğlu oldu, məni də Şəhid anası etdi!

Qurultayın keçirildiyi bu dövr əlamətdar hadisələrlə zəngindir. Belə bir tədbirdə iştirak etmək qürurvericidir. Bu iştirakımın təcrübəmə böyük qatqısı olduğunu hiss edirəm. Rayonumuza və məktəbimizə zəngin düşüncələrlə qayıdıram. Burada iştirak təhsilimizin müasir vəziyyətini, müasir yanaşmalara münasibətini daha yaxından görmək imkanı qazandırdı. Gördüklərimdən, eşitdiklərimdən qürur duydum. Azərbaycan düşmən münasibətindən əsrlərdir əziyyət çəkdiyi bir qonşu ilə yaşamaq məcburiyyətindədir. Şagirdlərimə həmişə deyirəm, biz böyük qələbəmizdən arxayınlaşmamalı, güclü təhsilimizlə dövlətimizin iqtisadi, siyasi, hərbi qüdrətini daha da artırmalıyıq. Bu gün daha yaxşı hiss etdim ki, təhsilimiz tezliklə bu tələbə cavab verəcək".



### Müəllimin səsi eşidilir

Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın Azərbaycan dili və ədəbiyyatı müəllimi, Əməkdar müəllim Fazil Ellazov sertifikatlaşdırma prosesinin qaliblərindəndir: "İlk dəfə qurultayda iştirak edirdim. Plenar iclas olduqca xoşuma gəldi. Çox möhtəşəm tədbir oldu. Panel müzakirələrdə yeniliklər barədə məlumat verdilər, müəllimlərin fikirləri, problemləri, təklifləri ilə tanış oldular. Hər təklifi qeyd etdilər. Məncə, əsas da budur. Müəllimin səsi eşidilirsə, onların fikirləri ilə bağlı tədbirlərin də görüləcəyi şübhə doğurmur".



### "Maraqlı fikirləri qeyd etdim ki, öz təcrübəmdə nəzərə alım"

Vətən müharibəsi iştirakçısı Vüsal Ramizov Cəbrayıl rayon Tatar kənd tam orta məktəbinin tarix müəllimidir. Qubadlı, Zəngilan, Xocavənd uğrunda gedən döyüşlərə qatılaraq "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib: "5 ildir müəlliməm. Hazırda 2 yerdə işləyirəm. Cəbrayıl məktəbi ilə yanaşı, Beyləqanda da dərs aparıram. 2 dəfə müəllimlərin işə qəbulu imtahanlarında iştirak etmişəm və yüksək nəticə qazanaraq 2 yerdə işləmək imkanı qazanmışam. Müəllim olaraq nailiyyətlərim diqqət çəkib və bu qurultayda iştirak etmək hüququ qazanmışam. İlk gün "Ümumi təhsilin məzmununa müasir yanaşmalar" mövzusunda panel müzakirələrdə iştirak etdim. Qurultayın ikinci günündə tarix və coğrafiya fənlərinin tədrisində yeni yanaşmaları əhatə edən müzakirələrə qatıldım. Çox maraqlı fikirlər, təkliflər eşitdim. Müzakirələrin gedişində mən də öz fikirlərimi çatdırdım, maraqlı təklifləri qeyd etdim ki, öz təcrübəmdə nəzərə alım".



### "Şagirdlərimizi gələcəyə hazırlamaq üçün..."

Əməkdar müəllim, Binəqədi rayonu R.Əliyev adına 3 nömrəli tam orta məktəbin direktoru Almaz Həsrət də qürurludur: "Xarıbülbülün qərənfilə müjdəsinin sədası təhsil cameəsindən də yan ötmədi. Xoş müjdəli, Qarabağlı Azərbaycanın ilk olan, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə keçirilən Azərbaycan müəllimlərinin XVI qurultayında iştirakdan qürur duydum. Çox səmərəli və çox fərqli məzmunu ilə seçilən qurultaydan bəhrələnərək yeni ideyalar, mövzularla qayıdıram məktəbimizə. Düşünürəm ki, öz pedaqoji fəaliyyətimdə səmərəli olacaq çox maraqlı fikirlər, təcrübələrlə tanış oldum. Yeni nəslin hazırlanmasında yeni baxışlar və yanaşmalardan danışıldı. Həmin yanaşmaların tətbiqindən sonra əldə edəcəyim nəticələri görmək üçün səbirsizlənirəm. Cənab nazir Emin Əmrullayevin çıxışında vurğuladığı kimi, şagirdlərimizi gələcəyə hazırlamaq üçün mütəmadi olaraq dünyanın nəbzini tutan yeni və ən son məzmunu mənimsəyib, ötürmək vacibdir".



### "Qurultay hədəflədiyi məqsədlərinə çatdı"

Riyaziyyat müəllimi Afərin Əkbərli: "Azərbaycan müəllimlərinin XVI qurultayı çox məhsuldar keçdi. Mən qurultayda "Müasir dövrdə riyaziyyat fənninin tədrisi" panelində maraqlı müzakirələrdə iştirak etdim. Azərbaycan müəllimlərinin bir araya gələrək fikir mübadiləsi aparmağına çox ehtiyac duyulurdu. COVID 19 pandemiyasından sonra yeni bir dövr yaşayırıq. Smartfonların, yeni texnologiyanın, süni intellektin sürətli inkişafı ilə biz artıq yeni şagird modeli ilə üzbəüzük. Bu baxımdan bizim bir-birimizlə təcrübələrimizi paylaşmağa çox böyük ehtiyacımız var. Elm və Təhsil Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin rəhbərliyi səviyyəsində statistik təhlillərin verilməsi məncə, Azərbaycan müəlliminə mayak kimi yol göstərir. Mən hesab edirəm ki, qurultay hədəflədiyi məqsədlərinə çatdı və növbəti 5 il üçün biz müəllimlər nə edəcəyimizi bilirik".



### "Qurultay əhəmiyyətli islahatların başlanğıcı olacaq"

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Naxçıvan Dövlət Universiteti Musiqi Kollecinin direktoru, dosent Məhəbbət Babayeva ixtisas sahəsinə uyğun mövzularda müzakirələrə qatılıb: "Naxçıvan Dövlət Universitetindən XVI qurultaya qatılan 6 nəfərlik müəllim heyətində təmsil olunuram. Böyük fəxrdir ki, bu möhtəşəm sarayda, yüksək səviyyəli tədbirdə iştirak etdim. İlk dəfə belə möhtəbər tədbirə qatıldım. Çox maraqlı moderatorlar vardı, əhəmiyyətli mövzular qoyulmuşdu və bu baxımdan hansı panelə qatılacağımıza qərar verməkdə çətinlik çəkdik. Təbii ki, ixtisas sahəmə uyğun mövzular seçdim və nəticə etibarilə səmərəli hesab etdiyim müzakirələrdə iştirak etdim, öz təkliflərimi verdim. Əminəm ki, bu qurultay bütün regionlar üçün, blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyətli islahatların başlanğıcı olacaq".



### Qurultayda Füzulidə açılan İLK MƏKTƏBİ təmsil edirəm!

Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova: "Prezident İlham Əliyev və onun rəhbərliyi ilə şanlı zəfəri bizə bəxş edənlərə minnətdarlıq duyğusu ilə qurultayda iştirak etdim. Plenar iclasda mənə çıxış üçün söz verilmişdi. "İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" panelində müzakirələrə də qatıldım. Təhsil işçisi olaraq hər birimiz fəxr edirik ki, qurultayda çıxışçıların qeyd etdiyi zəfəri bizə bəxş edən qəhrəmanlar Azərbaycan məktəbinin, ölkə müəllimlərinin yetirmələridir.

2020-ci il oktyabrın 17-də öz azadlığına qovuşan Füzuli şəhəri də dağıntılara məruz qalıb. İndi orada müasir standartlara uyğun yaşayış kompleksləri yaradılır. Qurultayda Füzulidə açılan ilk məktəbi təmsil edirəm. Bu da sözlə ifadə edilməsi çətin olan sevinc hissi verir. XVI qurultayda qürurla qələbəmizin nəticələrindən, təhsilimizin Qarabağa qayıdışından danışdıq. Əminəm ki, növbəti qurultayda qayıdışın böyük nəticələrindən danışacağıq".



### "Müzakirələrdən sonra hiss edirəm ki, zəngin məlumat bazasına malikəm"

Ramin Əmrahov 3 ildir müəllimdir. Bərdə Peşə Liseyinin müəllimi olmaq üçün müsabiqəyə qatılıb və ən yüksək nəticə ilə müəllim olmaq, yüksək texniki peşə təhsili səviyyəsində dərs demək hüququ qazanıb. "Bu 3 ildə müxtəlif nailiyyətlərimiz olub. STEAM Azərbaycan festivalına qatılmışıq. Bu il müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək yüksək nəticə əldə etdim. Buna baxmayaraq, ikinci iş yeri seçmədən peşə liseyində fəaliyyətimi davam etdirirəm.

Gələcəkdə yaxşı müəllim olmaq üçün öz üzərimdə yorulmadan işləyirəm. "Peşə təhsili və gələcək üçün bacarıqlar" mövzusunda panel müzakirələrə qatıldım. Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov spikerlərdən biri idi. Bu müzakirələrdən sonra hiss edirəm ki, zəngin məlumat bazasına malikəm".

**Ruhiyyə DAŞSALAHLI**

# Azərbaycan təhsilində son 5 ildə əldə olunmuş nailiyyətlər

**Xəbər verildiyi kimi, 15-16 dekabr tarixlərində Bakı Konqres Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan müəllimlərinin XVI qurultayı keçirilib. Qurultayda dövlət və hökumət rəsmiləri, millət vəkilləri, media qurumlarının rəhbərləri, beynəlxalq, özəl, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələri, təhsil işçiləri, ekspertlər və digər qonaqlar iştirak ediblər. Qurultayda iştirak edən qonaqların təəssüratlarını təqdim edirik.**

### Təhsil eksperti, professor Şahlar Əsgərov:



"Azərbaycan müəllimlərinin XVI qurultayında elm və təhsil naziri Emin Əmrullayevin hesabatında yer almış məktəbəqədər təhsillə bağlı konsepsiyasını xüsusilə alqışlayıram. Son 100 ildə biz heç zaman məktəbəqədər təhsilə, uşaqların erkən öyrənməsinə fikir verməmişik. Məktəbəqədər təhsil təhsilin yuxarı pillələrindən çox fərqlənir, burada uşaqları həm öyrənirik, həm öyrədirik. Məktəbəqədər təhsildə tərbiyə çox önəmlidir və məktəbəqədər təhsilin məzmunu məsələsi çox diqqətlə izlənilməlidir. Qurultayda çox maraqlı çıxışlar, təkliflər dinlədik. Ümumilikdə qurultayın işini müsbət dəyərləndirirəm".

### Təhsil eksperti, Əməkdar müəllim Asif Cahangirov:



"Azərbaycan müəllimlərinin XVI qurultayının keçirilməsini çox yüksək qiymətləndirərək bildirmək istəyirəm ki, burada Azərbaycan təhsilində son 5 ildə əldə olunmuş nailiyyətlər əks edildi. Qurultayda innovativ yanaşmalara geniş yer verildi. Panel müzakirələrin keçirilməsi bu qurultayı əvvəlkilərdən fərqləndirirdi. Mən iki panel müzakirədə iştirak etdim və məzmunlu çıxışların, diskussiyaların şahidi oldum. Qurultayın ikinci günü Azərbaycan dili və ədəbiyyatı fənni üzrə çox maraqlı sessiyada iştirak etdim və orada da çıxış etdim, müzakirələrə qoşuldum. İştirak etdiyim müzakirələrdə xeyli sayda gözəl təkliflər verildi və onların bir qismi qurultayın qətnaməsində öz əksini tapdı".

### Rəşad Məcid, Azərbaycan Mətbuat Şurasının sədri:



"Azərbaycan müəllimlərinin XVI qurultayını böyük məmnunluqla dinlədim. Azərbaycan Respublikasının Prezidentinin müraciətində qaldırılan məsələlər, qarşıya qoyulan prioritet məsələlər bütün təhsil sektoru üçün vacib məsələlər idi. Cənab nazirin Azərbaycan təhsilində tarix boyu baş verən hadisələrə, təhlillərə əsaslanan çıxışı maraqlı tezislərlə zəngin idi. Ədəbiyyat dərslərinin vacibliyi, səviyyəsi, eyni zamanda Azərbaycan gənclərinin tariximizi öyrənməsi baxımından ədəbiyyat dərslərinin əhəmiyyəti barədə, müəllim haqqının yüksək tutulması ilə bağlı ADA Universitetinin rektoru Hafiz Paşayevin söylədiyi fikirlər çox faydalıdır. Hesab edirəm ki, Azərbaycan müəllimlərinin XVI qurultayı təhsildə islahatların gedişində mühüm izlərini buraxacaq".

### Osman Gündüz, Azərbaycan İnternet Forumunun rəhbəri:



"Mən hesab edirəm ki, Azərbaycan müəllimlərinin XVI qurultayı çox yüksək səviyyəli və əvvəlkilərdən kəskin fərqlənən bir tədbir oldu. Müxtəlif istiqamətlər üzrə faydalı müzakirələr aparıldı. Hesab edirəm ki, Elm və Təhsil Nazirliyi həmin müzakirələrdən əldə olunan informasiyalardan yararlanacaq. Bu il diqqətimi daha çox cəlb edən və dəyər verdiyim ondan ibarət oldu ki, təkcə nazirliyin əməkdaşları, müəllimlər yox, əlaqəli tərəflərin nümayəndələri də panellərdə iştirak edib maraqlı təkliflər irəli sürdülər, problemləri qabartdılar və həll yollarını göstərdilər".

**Lamiyə ƏLİMƏRDANOVA**




# Təhsilimiz qələbələrimizə, qələbələrimiz yeni təhsil ocaqlarının yaranmasına yol açdı

## "Azərbaycan məktəbi" jurnalının növbəti sayı işıq üzü görüb

**Əziz oxucularımız, Elm və Təhsil Nazirliyinin "Azərbaycan məktəbi" jurnalının "Heydər Əliyev İli"ndə işıq üzü görən dördüncü sayı Ulu Öndərin: "Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir" deyiminə söykənərək, gələcəyimiz olan təhsilimizin inkişafına yönələn məqalələri ilə görüşünüzə gəlib.**

Məramımız jurnalın üz qabığında əks olunan, Azad Şuşanın maarifçilik ənənələrinə şahidlik edən və bərpadan sonrakı dövrdə Azərbaycanın qüruru olacaq ziyalılarımızın yetişməsində mühüm rol oynayacağına inandığımız Şuşa şəhər 1 nömrəli tam orta məktəbin müasir görüntüsü təhsilin gələcəyinə inamın əyani təsviridir. Məqsədimizi isə jurnalın baş redaktoru Arzu Soltan: "Elmi nailiyyətlərin təhsilə, təhsilin yetirmələrinin elmə töhfə verməsinə bələdçi olmaq məqsədimizə sadiqik" - deyərək müəllimlərin gələcək nəsillərə öyrətmək istədiklərini bu sayımızda da oxuya biləcəyinizi vurğulayıb.

Bu sayımızda Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) direktor müavini, təhsil elmləri doktoru (Cons Hopkins Universiteti, ABŞ) Ülkər Babayeva və ARTİ-nin Şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsinin müdiri İlahə Tağıyeva "Müəllimlərin peşəkar inkişafına genderyönümlü yanaşma", ARTİ-nin direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent İlham Cavadov və ARTİ-nin mütəxəssisi, Bakı Dövlət Universitetinin doktorantı Aynur Həşimova "İnkişaf etmiş ölkələrin və Azərbaycanın ümumtəhsil pilləsində qiymətləndirmə sistemlərinin müqayisəli təhlili", Azərbaycan Texniki Universitetinin Keyfiyyətin təminatı və Öyrənmə-Öyrətmə Mərkəzinin mütəxəssisi, Qazi Universitetinin (Türkiyə) doktorantı Rasim Həsənzadə və Azərbaycan Dövlət Pedaqoji Universitetinin SABAH magistratura proqramının Təlim və tədrisin təşkili və metodikası ixtisaslaşmasının magistrantı Vaqif Fətullayev "PISA 2018 nəticələrinə əsasən məktəb mühitinin şagirdlərin akademik nailiyyətlərinə təsirinin tədqiqi" və s. məqalələr yer alıb.

"Azərbaycan məktəbi" jurnalı bu sayında da ənənəsinə sadiq qalaraq,gələn il 100 yaşını qeyd edəcək jurnalın bir əsrlik tarixi boyu səhifələrində dərc olunmuş məqalələrdən seçmələr içindən 1950-ci ildə professor Boris Komarovskinin ayrı-ayrı dərsləri öyrənmək üsullarına həsr olunan "Məktəblərin təcrübəsini ümumiləşdirmək və pedaqojidən elmi məqalələr yazmaq" yazısını oxuculara təqdim edib.

Əziz oxucular, Azərbaycan məktəbi ilə təhsili davamlı edənlərdən olun!


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu,
Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4100 **Sifariş** 3410
**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Tağıyeva Leyla Teymur qızına verilmiş E-334514 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2002-ci ildə Ağayev Natiq Sabir oğluna verilmiş AB-II-084980 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq Kollec** tərəfindən 2007-ci ildə Məmmədova Natiqə Elşən qızına verilmiş BB-II-055690 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Yusifli Eldəniz Şahin oğluna verilmiş A-336551 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Həsənzadə İsmayıl Taryel oğluna verilmiş E-338598 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Xankişiyev Vüqar Səhrad oğluna verilmiş A-247363 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Akademik Ə.Hüseynov adına Əmirvarlı kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Yaqubov Emin Füzuli oğluna verilmiş E-425932 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Dağüzü kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Əliyev Elşən Pirağa oğluna verilmiş A-153074 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 1 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Məhərrəmov Nihad Əhliman oğluna verilmiş E-191684 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Abbasov Elnur Fərrux oğluna verilmiş A-503234 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Mirzəliyeva Cəmilə Əlirza qızına verilmiş AK-414767 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Məhərrəmov Elvin Mübariz oğluna verilmiş A-018217 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Qayıdış qəsəbə 5 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əlövsədli Ruslan Aslan oğluna verilmiş A-232907 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Qoşadizə kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Əhmədova Jalə Fərzalı qızına verilmiş B-157225 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Qapanlı kənd tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Qasımzadə Mirhüseyn Natiq oğluna verilmiş C-302196 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Araz qəsəbə tam orta məktəbi 2007-ci ildə bitirmiş Haqverdiyeva (Hüseynova) Gülnar Salman qızına verilmiş A-458818 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** tərəfindən 2011-ci ildə Məmmədov Kamil Yusif oğluna verilmiş 81K-958 nömrəli sertifikat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Sovxoz Texnikumu** tərəfindən 1980-ci ildə Cahangirov Qarakişi Savizəli oğluna verilmiş БТ-594026 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Dağ Kəsəmən kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Xəlilova Vəfa Mikayıl qızına verilmiş B-347894 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Vurğun qəsəbə tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Kamil Rais oğluna verilmiş B-053691 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Vurğun qəsəbə tam orta məktəbi 2004-cü ildə bitirmiş İbrahimova Günəş İsmixan qızına verilmiş B-053686 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye-Pedaqoji Texnikumu** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2005-ci ildə Muqumov Kamran Abdulla oğluna verilmiş BB-II-007260 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 266 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş İsmayılova İradə Ramiz qızına verilmiş 463 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Mirikənd kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Eynalov Vüqar Ələskər oğluna verilmiş A-040667 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2021-ci ildə Məlikzadə Sənubər Asəf qızına verilmiş C-110899 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı Kənd Təsərrüfatı Texnikumu** tərəfindən 1987-ci ildə Hüseynov Fikrət Yaqub oğluna verilmiş ИТ-028882 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Evdə fərdi təhsil məktəbini 2010-cu ildə bitirmiş Zeynalov Kamran Turab oğluna verilmiş B-748898 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Vərəzət kənd tam orta məktəbini 2021-ci ildə bitirmiş İslamov Tural Rasim oğluna verilmiş E-418655 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli məktəb-liseyi 1994-cü ildə bitirmiş Quliyeva (Baxşəliyeva) Esmira Millət qızına verilmiş 11 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2019-cu ildə Şabanov Orxan Şirin oğluna verilmiş C-028331 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Balvar kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Bağırov Tural Tağı oğluna verilmiş B-070134 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Xəlfəli kənd tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Həsənov Əhməd Kərim oğluna verilmiş A-596693 nömrəli ümumi təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şağlazüzə kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Həbibova Şəbnəm Xanəhməd qızına verilmiş A-616975 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Mədətova Xədicə Zahir qızına verilmiş C-411985 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş İsmiyeva Arzu Rafiq qızına verilmiş 0143 nömrəli orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Dəhnəxəlil kənd tam orta məktəbi 1984-cü ildə bitirmiş Abdurəhmanova (Zakirova) Tənzilə Namis qızına verilmiş 949633 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Babayeva Rahimə Səlvər qızına verilmiş A-272519 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 6 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Əliyeva Ceyla Tofiq qızına verilmiş E-181887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universiteti** tərəfindən 1994-cü ildə Qəmbərov Elxan Əlinağı oğluna verilmiş ЦВ-842183 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qazma kənd 2 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Musayev Nihat Nurəddin oğluna verilmiş A-165755 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 249 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Qasımov Fuad Cavad oğluna verilmiş 2245 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2003-cü ildə Hüseynov Qaşqay Bayram oğluna verilmiş A-132976 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2007-ci ildə Məmmədova Aygün Hüseyn qızına verilmiş YB-009902 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə tam orta məktəbi 2004-cü ildə bitirmiş Nəbiyev Ramil Hümmət oğluna verilmiş B-075865 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qapanlı kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Həsənova Sevda İbrahim qızına verilmiş B-160595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Füzuli qəsəbə tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Səfərov Elyar Qalib oğluna verilmiş A-065557 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Alpoud kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Nəbiyeva (Eyubova) Aytən Səhlədar qızına verilmiş 647941 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Muxtarov Aslan Mehman oğluna verilmiş B-664670 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** İnstitut qəsəbə tam orta məktəbi 2006-cı ildə bitirmiş Əzizova Firuzə Arif qızına verilmiş B-251040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** 137 nömrəli Orta Texniki Peşə Məktəbi tərəfindən 1988-ci ildə Bəşirova (Nağıyeva) Əfiqə Qulam qızına verilmiş 239583 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Hil kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Rzayeva Fərqanə Bahaddin qızına verilmiş B-201179 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Xaçmaz kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Lətifova Nailə Əbülfət qızına verilmiş A-097833 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1990-cı ildə Abbasov İdris Yunis oğluna verilmiş УВ-I-107200 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Əhmədov İlqar Yelmar oğluna verilmiş A-180910 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Maliyyə İqtisad Kolleci** tərəfindən 2022-ci ildə Babazadə Zeynəb Cahangir qızına verilmiş Təhsil kartı itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 24 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Əliyev Asif Elçin oğluna verilmiş A-021993 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan kənd 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Əzimov İbrahim Mirzağa oğluna verilmiş 116279 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Bəhrəmova (Quliyeva) Məryəm Bəxtiyar qızına verilmiş B-189844 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 16 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Cəfərova Günel Yasəf qızına verilmiş 211604 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universitetinin Kolleci** tərəfindən 2022-ci ildə Qardaşova Banu Rəşad qızına verilmiş AA-177376 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Təzəkənd kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş İsmayılov Azər Osman oğluna verilmiş A-229969 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Tağıyeva (Hüseynova) Züvər Mehbalı qızına verilmiş A-004463 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 280 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Talıbova Sevinc Vaqif qızına verilmiş A-029792 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci** tərəfindən 2022-ci ildə Yusifov Məzahir Fuad oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Kərimbəyli kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş İsmayılova Reyhanə Fikrət qızına verilmiş A-733920 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 13 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abbasov Çingiz Məzahir oğluna verilmiş B-255661 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Əhmədabad kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədov İlgiz Xasay oğluna verilmiş B-392481 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2017-ci ildə Ağayev Müstəqil Elşad oğluna verilmiş A-145010 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərittifaqın Bakı Kooperativ Texnikumu** tərəfindən 2001-ci ildə Məşədiyev Samir Hüseyn oğluna verilmiş AB-II-071197 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2020-ci ildə Bədirova Fidan Fariz qızına verilmiş C-084950 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə İldırımlı Türkan İlham qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 126 nömrəli (indiki "Vətən" İdman Liseyi PHŞ) tam orta məktəbi 2003-cü ildə bitirmiş Rəsulova Asya Telman qızına verilmiş A-619198 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Ərşəli kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Bayramov Yaşar Hacıbala oğluna verilmiş E-074276 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 2 nömrəli (Nehrəm qəsəbə 2 nömrəli tam orta məktəb) tam orta məktəbi 2017-ci ildə bitirmiş Nəzərəliyev Nəsrəddin Qamət oğluna verilmiş E-036450 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** İbadulla kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Nağıxanlı Ərkan İsfəndiyar oğluna verilmiş E-037257 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 16 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Surxayeva Nigar Hüseyn qızına verilmiş A-891732 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Təhsil İnstitutunun rəhbərliyi və kollektivi institutun "Məktəbəqədər təhsilin inkişafı" şöbəsinin aparıcı mütəxəssisi Rüxsarə Tağıyevaya atası

**ELDAR MİRZƏZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# DƏRSLƏRARASI FASİLƏ



## Müəllim və şagirdlərin düşüncələri

Tədrisin keyfiyyətinə birbaşa təsir edən müxtəlif amillər var ki, bunlardan biri də zehni yorğunluqdur. Bəs, məktəblərimizdə zehni yorğunluğa səbəb olan amillər hansılardır? Düşünürəm ki, burada ən vacib amillərdən biri də dərslərarası tənəffüslərin vaxtının azlığıdır.

Bəs, beynəlxalq təcrübədə bu məsələyə necə yanaşılır? Dünyanın təhsil sahəsində öndə gedən ölkələrinin təcrübəsinə baxdıqda görürük ki, məktəblərin, demək olar ki, əksəriyyəti birnövbəlidir. Bir sinifdə gün ərzində maksimum 6 saat dərs tədris olunur. Dərslərarası fasilə, yəni tənəffüs 15-20, hətta 25-30 dəqiqəyə qədər uzanır. Bundan başqa, müəllim gün ərzində 30-40 dəqiqəlik fasilələrlə maksimum 5 saat dərs deyə bilər.

İndi isə gəlin bizim məktəblərə nəzər salaq. Öncədən etiraf edək ki, şagird sıxlığı səbəbindən tədris ocaqlarımızın əksəriyyəti, ələxsus şəhər məktəbləri ikinövbəli, hətta üçnövbəlidir. Birinci növbənin dərsləri saat 8:00-da başlayır, 13:00-da, ikinci növbə saat 13:15-də başlayır və 18:00-da bitir. Əksər məktəblərimizdə dərslərarası tənəffüs 5, böyük tənəffüs isə 10 dəqiqədir. Məhz bu ikinövbəlilik tənəffüslərin çox qısa olmasına səbəb olur. Nəticədə həm şagird, həm də müəllim 5 dəqiqəlik tənəffüslə dalbadal 5-6, hətta 7 saat tədris prosesində olurlar. Belə olan təqdirdə təbii ki, günün sonlarına yaxınlaşdıqca onlarda yorğunluq özünü büruzə verir ki, bu da tədrisin keyfiyyətinə birbaşa mənfi təsir göstərir.

Məsələnin mahiyyətini daha da dərindən öyrənmək məqsədilə paytaxtda yerləşən həm ikinövbəli, həm də birnövbəli məktəblərdə olduq. Məktəb rəhbərliyi, müəllim və şagirdlərlə görüşüb söhbətləşdik.



### “Əhalinin sıxlığı məktəbimizin üçnövbəli şəkildə fəaliyyət göstərməsinə əsas səbəbdir”

Hövsan qəsəbəsində yerləşən 280 nömrəli məktəbin direktor müavini Elmira Cavadova bizimlə söhbətində bildirdi ki, tədris ocağı 1400 yerlik olmasına baxmayaraq hazırda məktəbdə 2669 şagird təhsil alır. O, məktəbin üçnövbəli olduğunu deyir: “Ərazidə əhalinin sıxlığı məktəbimizin üçnövbəli fəaliyyət göstərməsinə əsas səbəbdir. Dərslərarası tənəffüsün çox olmasını biz də arzulayırıq. Amma şagird sıxlığı buna imkan vermir”.

### “STEAM-la bağlı dərslər olduğu üçün ard-arda dərslər məni bir o qədər yormur”

Səringül Abbasova 280 nömrəli tam orta məktəbin informatika müəllimidir. Dərs yükü 34 saatdır. Ən çox dərsinin olduğu gün həftənin ikinci günüdür. O, həmin gün ard-arda yeddi saat dərsi olduğunu bildirir: “Əvvəllər 3-cü saatdan sonra böyük tənəffüs 10 dəqiqə idi. Bu il isə 3-cü növbə olduğu üçün 10 dəqiqəlik tənəffüs də 5 dəqiqə oldu. STEAM-la bağlı dərslər olduğu üçün ard-arda dərslər məni bir o qədər yormur. Çünki həmin dərslər bölünür və şagirdlər tapşırıqları yerinə yetirir. Günün ilk dərslərində təbii ki, daha enerjili oluruq. Sonuncu dərslərdə istər-istəməz yorğunluq özünü büruzə verir. Tənəffüsümüzün heç olmasa biri 10 dəqiqə olsa, bizim üçün də yaxşı olar. Çay içərik, yorgunluğumuz bir az keçər. Lakin onu da bilirik ki, vaxt darlığıdır. Şagird sıxlığı buna imkan vermir”.

### “Dərs saatları arasında fasilənin olması müəllimin zehni yorğunluğunu aradan qaldırır”

280 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Könül İmanova da həm birinci, həm də ikinci növbədə dərslərinin olduğunu deyir. Həftənin bir günü altı saat dalbadal dərs keçdiyini deyən Könül müəllim digər günlərdə dərslərarası fasilələrin də olduğunu bildirir: “Artıq 5 dəqiqəlik tənəffüslərə vərdiş etmişik. Gün ərzində bir dəfə də olsa ayaqüstü çay içib, yorgunluğumuzu çıxarda bilirik. Bəzən onu da edə bilmirik. Lakin təbii ki, tənüffüslər heç olmasa gündə bir dəfə 10-15 dəqiqə olsa, daha yaxşı olar. Dərs saatları arasında fasilənin olması da müəllimin zehni yorğunluğunu aradan qaldırır”.

### “Tənəffüsün vaxtı çox olsa, biz dərslərə daha enerjili davam edərik”

280 nömrəli tam orta məktəbin şagirdi Nazxanım Quliyeva bizimlə söhbətində bildirib ki, həftənin bir neçə günü 7 saat dərsləri olur. O, sonuncu dərslərdə yorulduğunu bildirir: “ Tənəffüsün vaxtı çox olsa, biz dərslərə daha enerjili davam edərik. Rahat şəkildə yemək yeyə, sinif yoldaşlarımızla söhbət edə bilərik. Beş dəqiqəlik ara ilə dalbadal 7 saat dərsdə olmaq bizi istər-istəməz yorur”.

### “Hər iki dərsdən sonra tənəffüslərin vaxtı 10 dəqiqədir”

Məsələ ilə bağlı paytaxtın Mərdəkan qəsəbəsində yerləşən 183 nömrəli tam orta məktəbdə də olduq. Qeyd edək ki, adıçəkilən məktəb birnövbəlidir. Məktəbin direktoru Rəhilə Abbasova bizimlə söhbətində qeyd edib ki, məktəb 3 korpusdan ibarətdir. O, məktəbin 1240 yerlik olduğunu, 1516 şagirdin təhsil aldığını deyir: “ Məktəbimiz birnövbəlidir. Hər iki dərsdən sonra tənəffüslərin vaxtı 10 dəqiqədir. Düşünürük ki, bu müəllimlərin zehni yorğunluğunu aradan qaldırır. Şagirdlər üçün də bunun faydalı olduğunu düşünürük. Tədrisin keyfiyyəti bizim üçün əsas şərtdir. Əsas fənləri çalışırıq ki, birinci, ikinci saatlara yerləşdirək”.

### “On dəqiqəlik tənəffüslərdə yorğunluğumuzu çıxara bilirik”

183 nömrəli tam orta məktəbin tarix müəllimi İradə Məmmədova ən çox gün ərzində 7 saat dərs dediyini, tənəffüs vaxtının çox olduğuna görə bunu normal şəkildə idarə etdiyini, yorulmadığını söyləyir: “On dəqiqəlik tənəffüslər işimizi rahatladır. Müəllimlərlə müəyyən müzakirələr aparmağa imkanımız olur. On dəqiqəlik tənəffüslərdə rahat çay içib, yorğunluğumuzu çıxara bilirik. Mən işimdən zövq alıram. Bizim məktəbdə tarix kabineti var. Şagirdlər tarix dərslərində həmin kabinetə gəlir. Yəni müəllim sinif dəyişmir”.

### “Çalışıram ki, dərslərimə adaptasiya olum”

183 nömrəli tam orta məktəbin şagirdi Ramiz Şahverdiyev də bizimlə söhbətində məktəbdə vaxtının səmərəli keçdiyini, yorğunluqla bağlı probleminin olmadığını deyir: “On dəqiqəlik tənəffüslərdə sinif yoldaşlarımla söhbətləşə bilirik. Əlbəttə ki, son dərslərdə əvvəlki dərslərlə müqayisədə bir az yorğunluq hiss olunur. Lakin buna baxmayaraq çalışıram ki, dərslərimə yüksək səviyyədə adaptasiya olum”.

Müşahidələrimizdən bu nəticəyə gəldik ki, birnövbəli məktəblərdə ikinövbəli məktəblərdən fərqli olaraq tənəffüs vaxtının uzadılması daha real görünür. Yəqin ki, təhsil işçiləri məsələnin ciddiliyini qəbul edir. Lakin həllinə gəldikdə isə düşünürəm ki, ikinövbəli məktəblərdə tənəffüslərin vaxtının uzadılması mümkün görünmür. Bunun da əsas səbəbi paytaxda əhalinin sıxlığı ilə əlaqədardır. Yenə də mütəxəssislərin müzakirəsinə ehtiyac olduğunu düşünürəm.

**Niyazi RƏHİMOV**

# Məktəblilər üçün yeni lüğətlər

**Üzun illər lüğətçilik ənənələrinə sadiq qalan, bu sahədə böyük xidmətləri olan alim, AMEA Dilçilik İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Nəriman Seyid Əliyev şagirdlər üçün iki lüğət nəşr etdirib: “Məktəblinin sinonimlər və antonimlər lüğəti” və “Məktəblinin frazeoloji sinonimlər lüğəti”. Həmin lüğətlər ümumtəhsil məktəblərinin yeni proqramları əsasında hazırlanıb.**

Lüğətlərin redaktorları professorlar Nadir Məmmədli və İsmayıl Məmmədli, rəyçilər filologiya elmləri doktoru Aynel Məşədiyeva, filologiya üzrə fəlsəfə doktoru, dosent Baba Məhərrəmli, filologiya üzrə fəlsəfə doktoru, dosent Fizuli Mustafayev və Bakı şəhəri 286 nömrəli tam orta məktəbin tədris işləri üzrə direktor müavini Kəmalə Mustafayevadır.

“Məktəblinin sinonimlər və antonimlər lüğəti”ndə həm sinonim, həm də antonim haqqında qısa məlumat verilir, onların növləri, əmələgəlmə yolları, bədii üslubi baxımdan zənginliyi və s. vurğulanır. Bəzi sözlərin isə sinonim cərgə təşkil etməsi barədə ətraflı məlumat verilir. Məsələn: ağız, dəhan (klassik ədəbiyyatda); böyük, azman, iri, nəhəng, yekə (danışıqda), Vətən, məskən, yurd, yuva (məcazi mənada) və s. Adıçəkilən lüğətdə milli sözlərə daha çox üstünlük verilib.

Antonimlər lüğəti hissəsində verilən cərgənin bir üstün cəhəti ondadır ki, ikinci əks tərəfi təşkil edən bəzi sözlərin də sinonimləri verilib. Məsələn: cavan - qoca, ahıl, yaşlı; böyük - balaca, kiçik, xırda və s.

“Məktəblinin frazeoloji sinonimlər lüğəti”ndə vaxtilə sabit söz birləşməsi kimi ifadə olunan frazeologiya, onun bir elm kimi formalaşması, inkişaf yolları, üslubi imkanlarının genişlənməsi, fikri yığcam, obrazlı, dəqiq ifadə etməsi və s. haqqında qısa məlumat verilib.

Frazeoloji birləşmələrin komponentləri ən azı iki, üç, dörd və s. sözdən ibarət olub məcazi məna bildirməklə, sadə bir fikri ifadə edir. Məsələn: qulaq asmaq - qulaq vermək - guş qılmaq (eşitmək, dinləmək); ağlı başından çıxmaq - başına hava gəlmək - başı xarab olmaq; ağrımayan başına dəsmal bağlamaq - isti yerini soyuq eləmək - özünü işə salmaq (hər bir işini çətinə salmaq) və s.

Xalq tərəfindən yaradılan frazeologizmlər dilimizdə çox zəngindir və onların da əksəriyyəti danışıqda işlədilir.

Ümumiyyətlə, “Məktəblinin sinonimlər və antonimlər lüğəti” və “Məktəblinin frazeoloji sinonimlər lüğəti” adlı kitablar dəyərli vəsait kimi qəbul oluna bilər. İnanırıq ki, hər iki lüğət, nəinki orta məktəb şagird və müəllimlərinin, həmçinin ali məktəbdə təhsil alan tələbələrin və pedaqoqların, hətta geniş oxucu kütləsinin də masaüstü kitabı olacaqdır.

**Fizuli MUSTAFAYEV,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Məktəblərdə dərsliklər necə qorunur?

**Məqsədimiz heç də məktəb kitabxanalarının iş prinsipini önə çəkib qiymətləndirmək deyil. Sadəcə burada dərsliklərin saxlanma vəziyyəti ilə yaxından tanış olmaqdır. Elə bu niyyətlə də paytaxtın 49 nömrəli “İntellekt”, 62 nömrəli məktəb-lisey, 61 və 214 nömrəli tam orta məktəblərinə yolumuzu saldıq.**

49 nömrəli “İntelekt” məktəb-liseyin kitabxana müdiri Mərziyə Cəfərova və kitabxanaçı Günay Həsənova ilə birlikdə kitabxananın işi ilə tanış olduq. Mərziyə Cəfərova 30 ildir ki, bu vəzifədə çalışır. O, məlumat verdi ki, kitabxanada saxlanılan dərsliklərin sayı 29.349 ədəddir. Cari tədris ilində kitabxanaya şagirdlər üçün 6.960 ədəd təzə dərslik verilib. Kitabların saxlanma vəziyyəti ilə əlaqədar siniflərə də baş çəkdik. Məktəb rəhbərliyi tərəfindən dərsliklərin qorunub saxlanması üçün lazımi tədbirlər görülüb, şagirdlərin istifadə etdikləri kitablara qarşı diqqətli olmaları nəzarətdə saxlanılır.

9 b sinif şagirdləri Mənzər Quluzadə və Nazlı Lətifova kitab haqqında öyrəndiklərini, eşitdiklərini, oxuduqlarını bizimlə bölüşdülər. Onlar kitabları təmiz, səliqəli saxlamağın, qorumağın hər bir şagirdin vəzifəsi olduğunu yaxşı anlayır və insanın ən yaxın dostu olduğu qənaətindədirlər. Kitabı cırmaq, tullamaq, yandırmaq bağışlanmazdır deyirlər.

Paytaxtın 61 nömrəli tam orta məktəbinin kitabxanasında dərsliklərin sayı 31.207 ədəddir. 5.876 ədəd dərslik bu il məktəbə verilib. Şagirdlərin dərslik təminatı tam ödənilib. Kitabxana müdiri Ziyafət Əmirovanın sözlərinə görə, təhsil müəssisəsinin fəaliyyət planına uyğun olaraq şagirdlərlə birgə məktəb üzrə dərsliklərin təmiz və səliqəli saxlanılması ilə əlaqədar monitorinq keçirilib. Məqsəd dərslik fondunun yaxşı saxlanılmasına nəzarətin gücləndirilməsi üçün sinif rəhbərləri və şagirdləri maarifləndirmək olub.



Qeyd olundu ki, 6, 7, 8-ci siniflərdə əmək dərslərində kitabların səliqəli saxlanmasında şagirdlərin köməyindən istifadə olunur. Məktəbdə “Kitab dostları”,“Kitablara yardım”, “Kitabsevərlər”,“Cildçilik”, “Cildçilər” dərnəkləri fəaliyyət göstərir. Şagirdlərdən Ayşən Yusifova, Niyazi Qəribli bu dərnəklərin fəal üzvləridirlər.

62 nömrəli məktəb-liseyin kitabxana müdiri Tamella Məmmədova və kitabxanaçı Tuzala Musayeva ilə birlikdə kitabxanada və sinif otaqlarında müşahidə apardıq. Kitabxana müdiri qeyd etdi ki, məktəbdə ümumi dərsliklərin sayı 33.689 ədəddir. Cari tədris ilində isə şagirdlərin istifadəsinə 5.531 ədəd təzə dərslik verilib.

Sonra sinif otaqlarında şagirdlərin istifadə etdikləri kitablara baxış keçirtdik. Kitabları səliqəsiz saxlayan bəzi şagirdlər aşkarlansa da, dərsliklərin təmiz və səliqəli saxlanması ilə əlaqədar məktəb rəhbərliyi tərəfindən xüsusi nəzarət mexanizminin tətbiq olunduğu bildirildi.

Şagirdlərdən Uğur Seyidli və Omar Abbaslı hər şeyi kitabdan öyrəndiklərini söylədilər: “Hər il bizə kitablar pulsuz verilir. Yaxşı oxumalı, vətənimizə sədaqətli övlad olmalıyıq. Buna görə də dövlətimizə borcluyuq!”

“Hər birimiz kitablarla dost olmalı və kitablara sevgi ilə yanaşmalıyıq” deyən şagirdlərə dərsliklərin istifadəsi zamanı onların düzgün saxlanılması və istifadə olunması haqqında tövsiyələr verildi.

Sonda cildli və səliqəli saxlanılmış dərsliklər siniflər üzrə açıqlandı.

214 nömrəli tam orta məktəbin kitabxanasında da müşahidələrimizi etdik. Kitabxana müdiri Laçın Qurbanova və kitabxanaçı Mehriban Əliyeva ilə birlikdə dərsliklərin necə saxlanmasını bilmək üçün ayrı-ayrı siniflərdə olduq.

Kitabxana müdiri bildirdi ki, məktəbdə ümumi dərslik fondu 58.985 ədəddir. Cari dərs ilində məktəb 8.620 ədəd dərsliklə təmin olunub. Şagirdlərin dərsliklərlə təminatı tam ödənilib.

Dərsliklərin səliqəli və təmiz saxlanması daimi nəzarətdə olsa da, siniflərdə kitabın içini yazan və səliqəsiz saxlayan bəzi şagirdlərə də rast gəldik. Onlar şagird məsuliyyətinin vacibliyi və kitabların 4-5 il istifadə müddətində səliqəli saxlanılması barədə maarifləndirildilər.

Bir sözlə, məktəblərdə dərslik kitablarının təmiz və səliqəli saxlanması vəziyyətini öyrənmək üçün aparılan araşdırmamız göstərdi ki, bu istiqamətdə xeyli işin görülməsinə baxmayaraq, bəzi nöqsanlar da mövcuddur.

Deməliyik ki, hər il Elm və Təhsil Nazirliyi tərəfindən şagirdlərə pulsuz paylanan dərsliklərə biganəlik yolverilməzdir. Məktəb kitabxanalarında saxlanılan dərsliklər həmişə diqqət mərkəzində olmalı və daim qorunmalıdır.

**Şakir CƏFƏROV**